HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 33 (723) ■ 27 avqust 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Xalça Muzeyinin yeni binasının açılış mərasimi olub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*



Müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzey binasında Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təqdim edilir.

Açılış mərasimində çıxış edən Prezident İlham ƏLİYEV deyib:

- Əziz dostlar, bu gün ölkəmizin həyatında çox gözəl və əlamətdar bir gündür. Şəhərimizin mərkəzində, bulvarda Azərbaycan üçün çox böyük dəyər kəsb edən Xalça Muzeyi açılır.

Azərbaycanda Xalça Muzeyi 1960-cı illərin sonlarında görkəmli alim, professor, rəssam Lətif Kərimovun təşəbbüsü ilə açılmışdır. Ancaq muzeyin öz binası olmamışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muzeyin fondlarının zənginləşdirilməsi üçün vəsait ayrılmışdı və birinci ekspozisiya İçərişəhərdə Cümə məscidində 1972-ci ildə nümayiş etdirilmişdi. Müstəqillik dövründə isə Xalça Muzeyi Muzey Mərkəzində fəaliyyət göstərirdi. Yadımdadır, 2006-cı ildə Muzey Mərkəzində olarkən, o cümlədən Xalça Muzeyinə də baş çəkdim və əlbəttə, elə o vaxt dərhal qərar qəbul etdim ki, mütləq Azərbaycanda Xalça Muzeyi üçün ayrıca bina tikilməlidir.

Əminəm ki, Bakı sakinləri, qonaqlar üçün burada nümayiş etdirilən ekspozisiya çox böyük maraq doğuracaqdır. Çünki muzeydə 15 minə yaxın eksponat var.

Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir. Təsadüfi deyil ki, muzeyin tikintisinə başlayandan sonra bizim təşəbbüsümüzlə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun qeyri-maddi irsi üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Biz öz xalçamızı, xalçaçılıq sənətimizi qoruyuruq. Azərbaycan xalçasının qorunması və inkişaf etdirilməsi haqqında müvafiq qanun da qəbul edilmişdir. Bu, bizim böyük sərvətimizdir və əlbəttə çalışmalıyıq ki, gənc nəsil bu sənətə maraq göstərsin. Biz bunu təşviq etməliyik.

Bizim mədəni irsimiz, tariximiz, mədəniyyətimiz çox zəngindir. Son illər ərzində dünyanın müxtəlif yerlərində Azərbaycanla bağlı təqdimatlar, sərgilər, konsertlər keçirilir. Əlbəttə ki, xalça o təqdimatların mərkəzində yerləşir. Çünki bu, doğrudan da dünya miqyasında böyük bir dəyərdir. Mən hesab edirəm ki, Azərbaycan xalçası dünyada xalçaçılıq sənətinin etalonudur. Təsadüfi deyil ki, bizim xalçalarımız dünyanın ən məşhur muzeylərində nümayiş etdirilir.

Bütövlükdə Azərbaycanın tarixi abidələrinin, tarixi irsimizin qorunması ilə bağlı müntəzəm olaraq işlər aparılır. Bu işlər öz nəticəsini verməkdədir. Milli dəyərlər - bizim mədəniyyətimiz, incəsənətimiz müstəqilliyimizin əsasıdır. Humanitar sahəyə Azərbaycanda çox böyük diqqət göstərilir. Təsadüfi deyil ki, Beynəlxalq Humanitar forumların Azərbaycanda keçirilməsi artıq ənənəyə çevrilmişdir. Dünyanın ən məşhur adamları, Nobel mükafatı laureatları, alimlər, ictimai xadimlər bu forumlarda mütəmadi qaydada iştirak edirlər. Azərbaycanda dinlərarası dialoq forumları keçirilir. Bakıda ən məşhur sərgilər keçirilir. Bu gün Heydər Əliyev Mərkəzi dünya miqyasında bir sərgilər mərkəzinə çevrilmişdir. Musiqi festivalları, müsabiqələr, beynəlxalq muğam müsabiqələri - bütün bunlar Azərbaycanın mədəni həyatını zənginləşdirir və Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Mən çox şadam ki, Azərbaycanda bu sahədə işlər ardıcıllıqla aparılır. Son illərdə Bakının bütün muzeyləri əsaslı təmir edilmişdir. Artıq bəzilərində indi təmir işləri gedir. Bakıda bir dənə də təmirsiz muzey qalmamışdır. Bölgələrdə, Bakıda yeni muzeylər yaradılır - Müasir İncəsənət Muzeyi, digər muzeylər, Xalça Muzeyi. Bu, əlbəttə ki, ölkəmizin ümumi inkişaf templərini göstərir, eyni zamanda, dövlət siyasətini əks etdirir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Teymur Bünyadov, xalçaçı-rəssam, dosent Məmmədhüseyn Hüseynov, Xalça Muzeyinin direktoru Röya Tağıyeva çıxış edərək Azərbaycan dövlətinin mədəniyyətə və sənətə qayğısını vurğuladılar.

Ad günü münasibətilə Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.

Daha sonra Xalça Muzeyi ilə tanışlıq oldu.

## rəsmi xronika

### Azərbaycan ilə ABŞ arasında nəqliyyat infrastrukturu sahəsində əlaqələr inkişaf edir

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 22-də ABŞ Nəqliyyat Komandanlığının yeni təyin olunmuş komandanı Pol Jozef Selvanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat infrastrukturu sahəsində uğurla inkişaf etdiyi vurğulanıb. Azərbaycanda nəqliyyat infrastrukturu, yerüstü daşımalar və yükdaşımalar üçün əlverişli xidmət vasitələrinin yaradıldığı bildirilib, bu istiqamətdə böyük layihələrin həyata keçirilməsinin önəmi qeyd olunub.

Görüşdə, həmçinin, Azərbaycanın əlverişli coğrafi mövqeyi və əldə etdiyi iqtisadi uğurlar nəticəsində ölkəmizin beynəlxalq nəqliyyat daşımaları sahəsində mühüm məkanlardan birinə çevrildiyi vurğulanıb. Söhbət zamanı Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı, nəqliyyat təminatı sahəsinə verdiyi töhfə yüksək qiymətləndirilib, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

### Dövlət başçısı Polşanın ölkəmizdəki səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixael Labendanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib. Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### Strateji tərəfdaşlığa əsaslanan dostluq

Avqustun 26-da Türkiyə Respublikasının XI Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Abdullah Gül prezidentlik fəaliyyəti dövründə Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etmiş, bu əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevlə olan şəxsi dostluq münasibətlərinin rolunu xüsusi vurğulamışdır.

Xoş sözlərə görə Abdullah Gülə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin möhkəmləndirilməsində Abdullah Gülün xidmətlərini xüsusi vurğulamış, ölkələrimiz arasında ikitərəfli əlaqələrin bundan sonra da daim yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.

# Prezident Bakıda 23 nömrəli tam orta məktəbin açılışında iştirak edib



Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva paytaxtın Nəsimi rayonundakı 23 nömrəli tam orta məktəbin binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak ediblər.

Təhsilin yeni mərhələyə qədəm qoyması, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb», «Təhsilə dəstək», «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır. Beləliklə, son illərdə ölkədə yüzlərlə məktəb binası və əlavə korpuslar tikilib, minlərlə məktəb binası əsaslı təmir edilib.

23 nömrəli tam orta məktəbin binasının əsaslı surətdə yenidən qurulması bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir.

Bu təhsil ocağının yenidən qurulmasına dövlətimizin başçısının sərəncamı ilə 2012-ci ildən başlanılıb. Məktəbin binası tamamilə sökülərək yerində müasir və memarlıq baxımından zövq oxşayan altımərtəbəli bina inşa olunub.

Məktəbdəki Heydər Əliyev Muzeyi də eksponatlarının zənginliyi ilə seçilir. Burada ulu öndərin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən maraqlı fotolar, sənədlər və kitablar toplanıb. Təhsil ocağında, həmçinin, məktəbəqədər hazırlıq kursları da nəzərdə tutulur. Hazırda məktəb 2163 şagird yerlikdir. Yenidənqurmadan əvvəl isə bu təhsil ocağı cəmi 500 yerlik olub. Burada 80 sinif otağı və 11 fənn kabineti var. Məktəb ingilis dili təmayüllüdür. Burada iki xarici dil tədris olunur. Rus bölməsində alman, Azərbaycan bölməsində isə rus dili tədris ediləcək. Hazırda məktəbdə 64 sinif var.

Azərbaycanda təhsil sisteminin inkişafına mühüm töhfələr verən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu məktəbin yenidən qurulması prosesini daim diqqətdə saxlayıb. Ötən il iyunun 11-də Azərbaycanın birinci xanımı burada aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olub, tövsiyə və təkliflərini verib.

23 nömrəli məktəb həmişə öz məzunları ilə fəxr edib. Məzunlar arasında bu gün təhsil konsepsiyasının reallaşmasına önəmli töhfə verən, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da var. 1981-ci ildə bu təhsil ocağını qızıl medalla bitirən Mehriban Əliyeva 2002-ci ildə ona doğma olan pedaqoji kollektivi xoş əməli ilə sevindirib. Təhsil ocağının müasir standartlara uyğun yenidən qurulmasına kömək göstərib. 23 nömrəli məktəb 2003-2004-cü təhsil ilində təlim-tərbiyə prosesində yüksək göstəricilərə görə Bakı şəhəri üzrə ən yaxşı təhsil müəssisəsi adına layiq görülüb.

Buradakı bütün sinif otaqları və ayrı-ayrı fənn kabinetləri ən müasir standartlar səviyyəsindədir. Hazırda məktəbdə bir növbədə həm Azərbaycan, həm rus bölməsi fəaliyyət göstərir. Yenidənqurma işləri çərçivəsində məktəbin sahəsi 7 min kvadratmetrdən 22 min kvadratmetrə çatdırılıb. Məktəbdə Mehriban Əliyevanın təşəbbüsü ilə şagirdlərin yaradıcılıq potensialını üzə çıxarmaq üçün rəsm, musiqi və heykəltəraşlıq otaqları yaradılıb. Məktəbdəki ibtidai hərbi hazırlıq dərsləri üçün xüsusi kabinet də ən yüksək standartlara cavab verir. Burada, həmçinin, milli qəhrəmanların fotolarından ibarət stend də yaradılıb.

Təhsil ocağının gimnastika və idman zalları, kitabxanası, linqafon və kompüter otaqları, tibb məntəqəsi var. 314 yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün bütün imkanlar yaradılıb.

Dövlətimizin başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiyaya tamaşa ediblər.

Sonra məktəbin şagirdləri Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ad günü münasibətilə təbriklərini çatdırıblar.

2 İcraya yönəldilmiş vergi borclarının alınmasına aid məsələlər müzakirə edilmişdir

3 Azərbaycanın vergi qanunvericiliyi Aİ qanunvericiliyinə uyğunlaşdırılır

4 Əmək müqaviləsi - gələcəyin zəmanəti

5 Xarici investisiyaların stimullaşdırılması üçün təkliflər hazırlanır

# Vergilər Nazirliyinin e-kitabxanası




Bu ilin may ayında Vergilər Nazirliyinin e-kitabxana.taxes.gov.az ünvanında yeni internet resursu - e-kitabxana vergi orqanları əməkdaşlarının istifadəsinə verildi. Elektron kitabxanada vergi qanunvericiliyi, vergi və vergitutma məsələləri ilə bağlı hüquqi aktlar, aktual yeniliklər barədə informasiyalar, nazirliyin nəşrləri, eləcə də xarici ezamiyyələrə dair materiallar cəmlənib. Elektron informasiyaların vahid bazada toplanılması, əməkdaşların həmin informasiyalardan daha çevik istifadəsinin təmin edilməsi, vergi qanunvericiliyi və inzibatçılığına dair təkliflərin, o cümlədən xarici ezamiyyələr zamanı əldə edilmiş materialların yerləşdirilməsi və bu barədə fikir mübadiləsi üçün şərait yaradılması e-kitabxananın fəaliyyətinin əsas istiqamətləridir.

E-kitabxananın tətbiqi və təkmilləşdirilməsi məsələlərinə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi, e-kitabxananın proqram təminatı və veb səhifəsinin təkmilləşdirilməsi, e-kitabxananın məlumat bazasında yerləşdirilmiş hüquqi aktlar və materialların mühafizəsinin təmin olunması məsələlərinə isə İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi nəzarət edir.

Vergilər Nazirliyinin hər bir strukturu üzrə e-kitabxananın işinə məsul şəxslər materialları e-kitabxanaya daxil edir, onları müntəzəm yeniləyirlər.

***Materialların e-kitabxanada yerləşdirilməsi prinsipləri***

E-kitabxanada materiallar iki başlıca prinsipə uyğun yerləşdirilib: əhəmiyyətlilik və üstünlük. Əhəmiyyətlilik prinsipinə daxil edilən hüquqi aktlar və materialların vahid məlumat bazasında toplanması, onların asan şəkildə axtarılması və əldə olunması, aidiyyəti hüquqi aktlara dəyişikliklər edildikdə operativ olaraq yenilənmiş variantların e-kitabxana vasitəsilə istifadəçilərə təqdim edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi zamanı materialların uzun müddət ərzində internetdə axtarılmasına sərf olunan vaxta qənaət olunması, əməkdaşların xarici ölkələrdə iştirak etdikləri konfrans, seminar və digər tədbirlərdə əldə etdikləri materialların, eləcə də beynəlxalq və regional təşkilatlar tərəfindən dərc edilən nəşrlərin e-kitabxanada yerləşdirilməsi aiddir.

E-kitabxanada yerləşdirilmiş materialların, yerindən asılı olmayaraq, istifadəçi tərəfindən asanlıqla oxuna bilməsi, hər hansı materialın eyni anda qeyri-məhdud sayda istifadəçi tərəfindən oxuna bilməsi, xarici ölkələrin makroiqtisadi göstəricilərinə, vergi sisteminə dair statistik məlumatların işlənib hazırlanması və yayılması isə üstünlük prinsipinə uyğun olaraq həyata keçirilir.

***E-kitabxana sisteminin əhatə dairəsi***

E-kitabxana sisteminə hüquqi aktlar və materialların daxil edilməsi üçün proqram təminatı, e-kitabxananın məlumat bazası və istifadəçi interfeysi daxildir. Hüquqi aktların və materialların daxil edilməsi üçün proqram təminatı bölmələr və təsnifatlar, axtarış zamanı istifadə olunan meyarlar üzrə istənilən hüquqi akt və materialların elektron formatda daxil edilməsinə və oxunmasına imkan verən proqramdır.

E-kitabxanadan hüquqi aktlar və materiallar bölmələr və təsnifatlar üzrə, eləcə də axtarış pəncərəsi vasitəsilə əldə olunur. Hüquqi aktlar və materiallar Azərbaycan, ingilis və rus dillərində yerləşdirilir. E-kitabxana qanunvericilik, xarici təcrübə, terminlər, indekslər, nazirlik əməkdaşlarının hazırladıqları təqdimatlar, videomateriallar və tarix bölmələrindən, eləcə də vergi forumu, faydalı elektron ünvanlar, saytın xəritəsi, nəşrlər, media, onlayn testlər, məzənnə, mühasibat uçotu standartları, əlaqə və attestasiya sualları adlı köməkçi bölmələrdən ibarətdir.

Qeyd etmək lazımdır ki, e-kitabxanada bütün bölmələrin müvafiq ardıcıllıqla göstərildiyi saytın xəritəsindən istifadə etməklə rahat və asan şəkildə lazım olan bölməyə keçmək mümkündür. Saytın xəritəsi e-kitabxananın tam strukturunu əks etdirir.

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumat bazasına inteqrasiya olunmuş proqram təminatı vasitəsilə e-kitabxananın əsas səhifəsində bir sıra xarici valyutaların və qiymətli metalların məzənnələri gündəlik yerləşdirilir.

***E-kitabxanadan istifadə ilə bağlı əməkdaşların hüquq və vəzifələri***

Vergi orqanı əməkdaşları üçün nəzərdə tutulan bu unikal sistemdən istifadə ilə bağlı əməkdaşların üzərinə müəyyən öhdəliklər düşür. E-kitabxanada yerləşdirilmiş hüquqi aktlar və materiallardan yalnız xidməti məqsədlər üçün istifadə edilə bilər. Eləcə də vergi əməkdaşları fəaliyyət sahəsinə uyğun hüquqi aktların və beynəlxalq təcrübəyə dair əldə olunmuş materialların e-kitabxanaya daxil edilməsi üçün tədbirlər görə, nazirliyin struktur vahidləri və ya bölmələrinin digər işçiləri tərəfindən e-kitabxanadan istifadə edilməsinə kömək göstərə bilərlər.

Əməkdaşların e-kitabxananın vergi forumunda müzakirəyə çıxarılan layihələrə münasibət bildirmək, aktual mövzular və məsələlər barədə müzakirələr və fikir mübadiləsi aparmaq, vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, e-kitabxananın təkmilləşdirilməsinə dair təkliflər vermək kimi hüquqları da var.

**AYTƏN**

# İcraya yönəldilmiş vergi borclarının alınmasına aid məsələlər müzakirə edilmişdir

*Vergi borclarının alınması işinin təşkili ilə bağlı vergi orqanları ilə müvafiq icra qurumlarının birgə fəaliyyətinin səmərəliliyinin daha da artırılması və bu sahədə mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə Ədliyyə Nazirliyində Vergilər Nazirliyinin nümayəndələrinin iştirakı ilə icraya yönəldilmiş vergi borcları üzrə icra qurumlarının icraatında olan işlərin vəziyyətinə həsr olunmuş müşavirə keçirilmişdir.*

İclası giriş sözü ilə açan Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Xanlar Zeynalov vergi borcları ilə bağlı icra qurumlarının icraatında olan işlərin vəziyyəti və bu sahədə görülən tədbirlər barədə məlumat vermişdir.

Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi, 1-ci dərəcəli müfəttiş Tural Quliyev icraya yönəldilmiş vergi borclarının dövlət büdcəsinə səfərbər edilməsinin əhəmiyyətini vurğulayaraq, bunun üçün vergi orqanları ilə icra qurumlarının sıx əlaqəli şəkildə işləmələrinin zəruriliyini vurğulamışdır. O, icraya yönəldilmiş borcların ödənilməsinin təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir edə biləcək aşağıdakı tədbirlərin daha geniş və sistemli şəkildə həyata keçirilməsini təklif etmişdir:

- borclu vergi ödəyicilərinin vergi orqanlarında olan müvafiq məlumatlarının icra qurumlarının sorğuları əsasında dərhal onlara ötürülməsi;
- siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılması üçün səmərəli tədbirlərin görülməsi;
- borclu fiziki şəxslərin ölkədən getmək hüququnun məhdudlaşdırılması və onlara inzibati qaydada həbs tətbiq olunması ilə əlaqədar məhkəmələrə edilən müraciətlərdən daha geniş istifadə olunması;
- siyahıya alınmış əmlakın etibar edildiyi şəxs tərəfindən israf olunması, özgəninkiləşdirilməsi, gizlədilməsi və dəyişdirilməsi hallarında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 303.1-ci maddəsinə əsasən cinayət işinin başlanılması;
- icraya yönəldilmiş vergi borclarının alınması məqsədilə vergi orqanlarının vəzifəli şəxslərinin və icra məmurlarının birgə iştirakı ilə tədbirlərin keçirilməsi.

Hər bir təklif ayrı-ayrılıqda ətraflı müzakirə olunaraq məqbul hesab edilmişdir.

X.Zeynalov təklif olunan tədbirlərin sistemli şəkildə həyata keçirilməsinin vergi borclarının dövlət büdcəsinə ödənilməsinə müsbət təsir edəcəyinə əmin olduğunu bildirərək, vergi orqanları və müvafiq icra qurumlarının birgə fəaliyyətinin gücləndirilməsi ilə bağlı mülahizələrini bildirmişdir.

# 2015-ci ilin büdcə hazırlıqlarına başlanılıb

Nazirlər Kabinetinin qərarına əsasən, Maliyyə Nazirliyi Azərbaycanın 2015-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini hazırlamağa başlayıb. Büdcə siyasətinə uyğun olaraq Maliyyə, İqtisadiyyat və Sənaye nazirlikləri qarşıdakı illərdə ölkənin sosial-iqtisadi, büdcə-fiskal, maliyyə, vergi, gömrük və digər sahələrə dair inkişaf konsepsiyasını, proqnoz göstəricilərini, maliyyə balansını və digər sənədləri hazırlayacaq. Eyni zamanda, müvafiq iqtisadi qurumlar ortamüddətli dövr üzrə Azərbaycanın iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərini tərtib edəcək. Maliyyə Nazirliyinin idarə rəisi Aydın Hüseynovun sözlərinə görə, gələn il üçün dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun (ÜDM) təxminən 30%-i həcmində nəzərdə tutulur.



*Gələn il qeyri-neft sektoru üzrə daxilolmaların büdcə gəlirlərinin tərkibində xüsusi çəkisinin artacağı proqnozlaşdırılır*

Proqnozlara əsasən, 2014-cü ildə ölkədə ÜDM-in 3,4%-i səviyyəsində real artımı gözlənilir. Azərbaycanda ÜDM-in həcmi 2013-cü ildə 57 milyard manatdan artıq olub və 2015-ci ildə bu rəqəm 62,9 milyard manat (artım 6%) səviyyəsində proqnozlaşdırılır. Beləliklə, gələn il büdcənin də 5%-ə yaxın artımı baş verəcək. 2015-ci ildə qeyri-neft sektoru üzrə daxilolmaların dövlət büdcəsi gəlirlərinin tərkibində xüsusi çəkisinin isə ilin proqnozu ilə müqayisədə 7-9% artacağı gözlənilir.

A.Hüseynov qeyd etmişdir ki, büdcə siyasəti ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla, iqtisadiyyatın prioritet sahələrinin modernləşməsinə və onun effektivliyinin, uzunmüddətli dayanıqlığının təmin edilməsi üçün şəraitin yaradılmasına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldiləcəkdir. Ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın artırılmasına nail olmaq, iqtisadiyyatın tənzimlənməsində dövlət büdcəsinin rolunu artırmaq, monetar və büdcə siyasətinin koordinasiyasını gücləndirmək əsas məqsədlərdəndir. Büdcə siyasətinin əsas prioritetləri bunlar olacaq:

- ÜDM-də qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisini yüksəltmək;
- büdcə gəlirlərinin yığım əmsalını artırmaq;
- respublikanın şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılması istiqamətində işləri davam etdirmək;
- dövlət büdcəsi xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisinin optimallaşdırılması istiqamətində işləri davam etdirmək;
- dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə adambaşına maliyyələşdirmə prinsipinə keçidi davam etdirmək;
- yerli dövlət proqramları və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılması üçün tədbirlər görmək;
- xərclərin investisiya və sosialyönümlüyünə üstünlük verməklə sosial siyasətin ardıcıl həyata keçirilməsini davam etdirmək və sosial öhdəlikləri yerinə yetirmək.

Qarşıdakı ildə büdcə-fiskal siyasətinə uyğun olaraq regionların inkişafının sürətləndirilməsinə, regionlar arasındakı sosial-iqtisadi fərqlərin mərhələlərlə aradan qaldırılmasına və balanslaşdırılmış inkişafa nail olunmasına, respublikanın rayon və şəhərlərinin yerli gəlirləri hesabına mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitlərin azaldılmasına diqqət artırılacaqdır. Büdcə qanunvericiliyinin ölkənin iqtisadi islahatlarının tələblərinə uyğun təkmilləşdirilməsi, iqtisadi siyasət, proqnozlaşdırma və dövlət büdcəsi layihəsinin tərtibində ələqələrin uzlaşdırılması, açıq büdcə göstəricilərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi ortamüddətli dövr üçün qarşıda duran vəzifələr sırasındadır.

2015-ci və sonrakı üç il ərzində ölkənin daxili resurslarının payının artırılması hesabına iqtisadiyyata daha çox sərmayə qoyulması, mərhələlərlə xərclərin orta və uzunmüddətli dövrlərini əhatə edən proqramlar əsasında proqnozlaşdırılmasının genişləndirilməsi, funksional səviyyədə xərclərin strukturunun təkmilləşdirilməsi, dövlət zəmanəti ilə iqtisadiyyata cəlb olunan və dövlət büdcəsində dövlət investisiya xərcləri üzrə nəzərdə tutulmuş vəsaitin prioritetlər, istiqamətlər üzrə bölgüsü, eləcə də həmin vəsaitlərə nəzarəti artırmaq qarşıda duran mühüm vəzifələrdəndir.

Büdcə strategiyasının başlıca istiqamətini təşkil edən sosial siyasətə uyğun olaraq büdcə xərclərinin son nəticəyə əsaslanan məqsədli proqramlar əsasında tərtibi işini davam etdirmək, sahibkarlığın inkişafını təmin edən və dövlət proqramlarında büdcə vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş tədbirləri maliyyələşdirmək, ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə aqrar sektorun inkişafı, kənd təsərrüfatı məhsullarının, o cümlədən taxıl istehsalının artırılması, istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması nəzərdə tutulur.

Növbəti ildə vergi siyasətinin əsas istiqamətləri sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, aktiv vergi siyasətinin həyata keçirilməsinə, inzibatçılığın müasir İKT sferasında təkmilləşdirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına, beynəlxalq vergi qanunvericiliyinə inteqrasiyanın daha da sürətləndirilməsinə yönəldiləcəkdir.

**Elbrus CƏFƏRLİ**

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

## Vergi ödəyicilərinin nəzərinə!

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi bildirir ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Azərbaycanın vergi qanunvericiliyi Aİ qanunvericiliyinə uyğunlaşdırılır

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovla müsahibə*



***- Natiq müəllim, Vergilər Nazirliyinin həyata keçirdiyi vergi sisteminin 2013-2020-ci illərdə inkişafı üzrə strateji planda nəzərdə tutulan tədbirlərdən biri Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı (Aİ) qanunvericiliyinə və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılmasıdır. Hazırda bununla bağlı hansı işlər görülür?***

- Aİ ilə Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin mühüm şərtlərindən biri də ölkəmizin mövcud qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Bu məsələ ölkəmizin Avropaya inteqrasiyasının sürətləndirilməsi istiqamətində əsas prioritetlərdəndir və onun həlli Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş vergi sisteminin inkişafı üzrə strateji planda nəzərdə tutulmuşdur. Artıq bu sahədə hazırlıq işlərinə başlanılmışdır. Qanunvericiliyin uyğunlaşdırılması ilə bağlı ilkin mərhələdə Aİ-nin dolayı vergitutma sahəsində 7 direktivi üzrə əsas tələblər təhlil edilərək müəyyənləşmişdir.

Avropada belə bir fikir formalaşmışdır ki, uyğunlaşdırılmamış vergi qanunvericilikləri ölkələr arasında malların, xidmətlərin və kapitalın sərbəst hərəkətinə mane olur və rəqabət prinsiplərini pozur. Bu baxımdan milli qanunvericiliklərin Aİ qanunvericiliyinə uzlaşdırılması prioritet hesab edilir. Uyğunlaşdırma prosesi isə birmənalı olaraq, əsasən, dolayı vergilər sahəsində aparılır ki, bu da yalnız həmin vergilərin qarşılıqlı ticarət münasibətlərinə təsir etməsi ilə şərtlənir.

Birbaşa vergilərə gəldikdə, bu qrupa daxil olan vergi növlərinin harmonizasiyasına ehtiyac duyulmur. Çünki birbaşa vergilər dolayı vergilər kimi kapitalın, malların sərbəst hərəkətinə və xidmətlərin göstərilməsinə birbaşa təsir etmir. Birbaşa vergilər hər bir ölkənin daxili iqtisadi siyasətinə uyğun müəyyən edilir.

Aİ-nin əsas tələblərindən biri təhsil xidmətlərinin ƏDV-dən azad olunması ilə bağlıdır. Aİ-nin ƏDV üzrə 28 noyabr 2006-cı il tarixli direktivinin tələblərinə uyğun olaraq 2013-cü il yanvarın 1-dən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164-cü maddəsinə dəyişiklik olunmaqla ödənişli təhsil xidmətləri ƏDV-dən azad edilmişdir.

Hazırda Aİ-nin ƏDV və aksizlərlə bağlı digər direktivlərinin aksizli malların əhatə dairəsi, ƏDV-yə cəlb olunan əməliyyatlar, ƏDV-nin dərəcəsinin diferensiallaşdırılması və s. barədə tələblərinin tətbiqi imkanları ilə bağlı araşdırma və müzakirələr davam etdirilir.

***- Hazırda aktual məsələlərdən biri də ölkədə nağdsız hesablaşmaların inkişaf etdirilməsidir. Vergilər Nazirliyi mütəmadi olaraq bu sahənin inkişafı üçün mühüm işləri yerinə yetirir. Bu sahənin inkişafının gələcək hədəfləri barədə nə deyərdiniz?***

- Son illərdə Azərbaycanda mütərəqqi Milli Ödəniş Sisteminin yaradılması üçün qabaqcıl beynəlxalq təcrübədən istifadə olunmaqla elektron hesablaşma sistemlərinin yaradılıb istifadəyə verilməsi istiqamətində bir sıra islahatlar aparılmışdır. İslahatlar nəticəsində real vaxt rejimində banklararası hesablaşmalar sistemi və xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi yaradılmış, onların tətbiqi nəticəsində böyük məbləğli və təcili ödənişlərin real vaxt rejimində (onlayn) həyata keçirilməsinə və xırda ödənişlərin, o cümlədən telefon, qaz, su, elektrik enerjisi üzrə kommunal ödəmələrin elektron daşıyıcılar, habelə plastik kartlar əsasında şəffaf, təhlükəsiz, səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılmışdır.

Görülən tədbirlər nəticəsində cəmi pul kütləsinin artımında müsbət tendensiya olaraq nağd pul kütləsinin azalması prosesi davam etməkdədir. Təhlillər göstərir ki, 2012-ci ildə cəmi pul kütləsinin həcmi 20,7%, nağd pul kütləsi 29,3% artmışdı. 2013-cü ildə isə cəmi pul kütləsi 15,4% artmış, nağd pul kütləsinin artımı 13% təşkil etmişdir.

Qeyd edim ki, bu sahədə beynəlxalq təcrübə araşdırılaraq respublika ərazisində nağd qaydada aparılan hesablaşmaların məhdudlaşdırılmasını və nağdsız ödənişlərin stimullaşdırılmasını nəzərdə tutan müvafiq qanunvericilik aktlarının layihələrindən ibarət təkliflər hazırlanmış, baxılmaq üçün artıq hökumətə təqdim olunmuşdur. Bununla yanaşı, ölkə iqtisadiyyatında nağdsız ödənişlərin stimullaşdırılmasında beynəlxalq tələblərə cavab verən daha təkmil qanunvericilik bazasının yaradılmasında texniki kömək üçün hazırda Dünya Bankının Azərbaycandakı nümayəndəliyi ilə müzakirələr aparılır.

Bu işlərlə yanaşı, vergi xidməti öz üzərinə düşən bir sıra işləri artıq tamamlamışdır. 2012-ci ilin aprel ayından başlayaraq vergi ödəyiciləri plastik bank kartından istifadə etməklə vergi və rüsumların internetlə ödənilməsi imkanını əldə etmişlər.

POS-terminal şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bildiyiniz kimi, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanuna edilmiş dəyişikliklərə əsasən, ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmalar aparılması üçün POS-terminalların quraşdırılması hüquqi və fiziki şəxslərin vəzifələrinə aid edilmişdir. Qanunun icrasından irəli gələrək nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən 2012-ci ildə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları» və «POS-terminallar quraşdırılacaq obyektlərin meyarları» təsdiq edilmişdir. Hazırda həmin qərarla müəyyən olunmuş qrafikə uyğun olaraq, vergi ödəyicilərinin obyektlərində POS-terminalların quraşdırılması işləri davam etdirilməkdədir.

Görülmüş işlər nəticəsində POS-terminal və ATM-lər vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi artmaqdadır. POS-terminal və ATM-lərin sayında da artım özünü göstərir. Bu il iyunun 1-nə respublika üzrə qeydiyyatda olan POS-terminalların sayı ilin əvvəlinə olan göstəriciyə nisbətən 1,6 dəfədən çox artaraq 51773 ədəd olmuşdur. Son 3 il ərzində POS-terminal və ATM-lər vasitəsilə həyata keçirilən nağdsız dövriyyənin həcmi dörd dəfəyədək artaraq 2013-cü ildə 578 milyon manat təşkil etmişdir.

***- Müzakirə olunan aktual məsələlərdən biri də elektron ticarətlə bağlıdır. Bu sahədə hansı işlərin görülməsi nəzərdə tutulur və hazırda bu sahəyə vergi nəzarəti necə təşkil edilir?***

- İnternet vasitəsilə elektron ticarətin həyata keçirilməsi dünyada gedən qloballaşma prosesinin tərkib hissələrindən biridir. Son dövrlərdə inkişaf etmiş ölkələr də artıq yeni inkişaf mərhələsinə - vahid informasiya cəmiyyətinin yaradılması mərhələsinə daxil olmaqdadır. Sahibkarlıq fəaliyyəti sahəsində bu istiqamətdə baş verən yeni dəyişikliklər biznesin elektron qaydada aparılmasında və ya elektron ticarətin tətbiqində öz əksini tapmışdır.

Dünya miqyasında elektron ticarət deyilən yeniliyin meydana çıxması yeni yaranmış münasibətlərin tənzimlənməsinə, o cümlədən texniki, iqtisadi, maliyyə, vergi və hüquq normalarının uzlaşdırılmasına zərurət yaratmışdır. Son illərdə ABŞ, Kanada, Avstraliya və bəzi Avropa ölkələrində elektron qaydada həyata keçirilən biznesi tənzimləyən qanunvericilik aktları qəbul edilir.

Artıq Azərbaycanda da biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Bunlara «Elektron sənəd, elektron imza haqqında», «Elektron ticarət haqqında» qanunları, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə elektron ticarətlə bağlı müddəaların daxil edilməsini göstərmək olar.

Hazırda sahibkarlıq fəaliyyətinin bütün sahələrinə, o cümlədən elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Lakin elektron ticarətin yuxarıda göstərilən xüsusiyyətləri nəzərə alınaraq vergi nəzarətinin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Yaxın gələcəkdə elektron ticarətə vergi nəzarətinin həyata keçirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilərək təkmil vergi nəzarəti mexanizminin yaradılması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur.

***- Bir müddət öncə Vergilər Nazirliyinin dəvəti ilə Aİ TAIEX proqramı çərçivəsində Avstriya Vergi Administrasiyasının ekspert qrupu Bakıda səfərdə oldu. Qrup nazirlik daxilində fəaliyyətin qiymətləndirilməsi sistemini təhlil etmiş və onun təkmilləşdirilməsi ilə bağlı tövsiyələrini hazırlamışdı. Bu sahədə hansı işlərin görülməsi planlaşdırılır?***

- Vergi sisteminin inkişafı ilə bağlı qəbul edilmiş Strateji Planda nazirliyin strukturları və işçilərinin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin araşdırılaraq tətbiqi imkanlarının müəyyən edilməsi və digər ölkələrin vergi orqanları ilə təcrübə mübadiləsi aparılması nəzərdə tutulur. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən fəaliyyətin qiymətləndirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübə öyrənilmişdir. 2014-cü ilin martında Aİ-nin TAIEX proqramı çərçivəsində Avstriya Vergi Administrasiyasının nümayəndələri ekspert missiyası şəklində Bakıda olmuş, mövcud vəziyyəti qiymətləndirmiş və ekspert hesabatı hazırlamışlar. Hesabatda Vergilər Nazirliyində fəaliyyətin qiymətləndirilməsi sisteminin güclü və zəif tərəfləri barədə rəy verilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın qərarı ilə «Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları» təsdiq edilmişdir. «Dövlət qulluğu haqqında» qanun əsasında hazırlanmış qaydalar dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini müəyyən edir. «Dövlət qulluğu haqqında» qanuna əsasən, vergi orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qiymətləndirilməsi bu qaydalara müvafiq olaraq aparılmalıdır. Vergilər Nazirliyində tətbiq olunan fəaliyyətin qiymətləndirilməsi qaydalarının qeyd olunan qaydalara uyğunlaşdırılması məqsədilə «Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları»nın yeni layihəsi hazırlanmışdır və layihənin müzakirələri aparılır.

***- Son dövrlərdə bələdiyyələrdə uçot sisteminin təkmilləşdirilməsi və bələdiyyələrə bu sahədə metodiki rəhbərliyin həyata keçirilməsi istiqamətində mühüm işlər görülür...***

- Məlum olduğu kimi, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» qanunun tətbiq edilməsi barədə ölkə Prezidentinin fərmanına əsasən, yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsində bələdiyyələrə metodik rəhbərliyi Vergilər Nazirliyi həyata keçirir.

Bələdiyyələrin büdcəsinə daxil olmuş vəsaitlərin təhlili göstərir ki, bələdiyyələr tərəfindən yığılmış vergi və ödənişlər onların fəaliyyətinin təşkili üçün kifayət etmir: 1700-dən çox bələdiyyənin topladığı yerli vergi və ödənişlərin məbləği 2013-cü ildə 47 milyon 209,7 min manat olmaqla, orta hesabla 1 bələdiyyəyə düşən illik daxilolmanın məbləği cəmi 27,8 min manat təşkil etmişdir.

Mövcud vəziyyətin yaxşılaşdırılması, bələdiyyələrin vergi xidmətlərinin fəaliyyətinin gücləndirilməsi üçün yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi prioritet məsələyə çevrilmişdir. Bu məsələ «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da nəzərdə tutulan vəzifələrdəndir.

Bələdiyyələrdə elektron uçotun həyata keçirilməsi ilə bağlı Vergilər Nazirliyinin sifarişi əsasında «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanmışdır. Bələdiyyələrdə avtomatlaşdırılmış uçot sisteminin tətbiq olunması onlarda geniş məlumat bazasının yaradılmasını təmin etməklə, yerli vergi və ödənişlərin düzgün hesablanmasına, onların yerli büdcələrə tam və vaxtında ödənilməsinə, bütövlükdə isə bələdiyyələrin sürətli inkişafına xidmət edəcəkdir.

Vergilər nazirinin əmrinə əsasən, yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli vergi və ödənişlərin uçotunun tətbiqi üzrə 2014-cü ildə pilot layihənin həyata keçirilməsi nəzərdə tutulmuşdur və həmin layihə hazırda 8 bələdiyyədə (Binəqədi rayonunun M.Ə.Rəsulzadə, Binəqədi qəsəbə, Binəqədi, Xocasən, Biləcəri bələdiyyələrində, Abşeron rayonunun Saray bələdiyyəsində, Sumqayıt şəhərinin Sumqayıt bələdiyyəsində və Şəmkir rayonunun Şəmkir bələdiyyəsində) həyata keçirilməkdədir. Qısa müddət ərzində pilot layihə həyata keçirilən bələdiyyələrdə proqram təminatı quraşdırılmış və yerli vergilərin 14 minə yaxın ödəyicisi BVİS-də elektron qaydada uçota alınmışdır.

Müvafiq proqram təminatının istifadə qaydalarını əks etdirən «Azərbaycan Respublikası Bələdiyyə Vergi İnformasiya Sistemi (BVİS)» adlı istifadəçi təlimatı da hazırlanmışdır. Hazırda Vergilər Nazirliyinin əməkdaşları tərəfindən gündəlik olaraq pilot layihənin əhatə etdiyi bələdiyyələrdə yerli (bələdiyyə) vergi ödəyicilərinin BVİS-də elektron qaydada uçota alınması üçün bələdiyyə əməkdaşlarına əməli və metodiki kömək göstərilir.

***- Bu gün sahibkarları narahat edən məsələlərdən biri mövcud təcrübədə vergi qanunvericiliyi sahəsində yaranmış mübahisəli halların onlara izah edilməsidir. Bu məsələ ilə bağlı hansı işlər həyata keçirilir?***

- Qeyd etmək istərdim ki, Vergi Məcəlləsində vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamlarının vergi ödəyicisinin xeyrinə şərh olunması öz əksini tapmışdır. Qanunvericilikdə müxtəlif cür tətbiq oluna biləcək halların mövcudluğu vergi sistemində məcəllənin müddəalarının tətbiqinə vahid yanaşmanın formalaşdırılmasını və məcəlləyə rəsmi şərhlərin hazırlanmasını zəruri edir.

Göstərilənlərlə əlaqədar, vergilər nazirinin 20 noyabr 2013-cü il tarixli əmrinə əsasən, Vergi Məcəlləsinin şərhlərinin hazırlanması ilə bağlı komissiya yaradılmışdır. Vergi Məcəlləsinin müddəalarının aydın və konkret şərh edilməsi üçün hazırda həmin komissiya tərəfindən çox ciddi işlər görülür. Düşünürük ki, Vergi Məcəlləsinə şərhlərin hazırlanması ayrı-ayrı maddələrlə əlaqədar sorğuların sayının da əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaqdır.

***- Vergi qanunvericiliyində mütəmadi olaraq dəyişikliklər edilir. Bu dəyişikliklər makroiqtisadiyyat və vergi sistemində olan əsas göstəricilərin təhlilinə əsaslanır. Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində baş vermiş dəyişikliklərin sonrakı qiymətləndirilməsi və monitorinqinin aparılması zamanı hansı üsullardan istifadə olunur?***

- Vergi sisteminin inkişafı üzrə Strateji Plana əsasən bu məsələ də öz həllini tapmalıdır. Planda vergi güzəşti və azadolmalarının monitorinqinin aparılması və təkliflərin verilməsi, vergi potensialının qiymətləndirilməsi, proqnozlaşdırılması modelləri sisteminin və müvafiq tətbiqi proqram paketinin təmin edilməsi nəzərdə tutulmuşdur. Həmin vəzifənin icrası, həmçinin ümumilikdə iqtisadiyyatda və vergi sistemində baş verən dəyişikliklərin qiymətləndirilməsi məqsədilə AVİS-də «Strateji araşdırmalar modulu» proqram təminatının hazırlanması üzrə işlər davam etdirilir.

Vergi potensialının müəyyən edilməsi, vergi güzəştlərinin hesablanması və qiymətləndirilməsi ilə bağlı görülən tədbirlər, ölkə iqtisadiyyatını və vergi sistemini əhatə edən geniş məlumat bazası vergi sisteminin inkişafının monitorinqini aparmağa və onun obyektiv qiymətləndirilməsinə imkan yaradacaqdır.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## ƏDV-nin hesablanması və ona təsir edən faktorlar

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, hesabat dövrü ərzində vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləği vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqlə müəyyən olunur.

Vergi Məcəlləsində göstərildiyi kimi, əvəzləşdirilən ƏDV-nin məbləği vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturaları üzrə nağdsız qaydada ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği sayılır.

Vergi ödəyicisi vergi tutulan əməliyyatlar və Vergi Məcəlləsinə uyğun olaraq ƏDV-dən azad edilmiş əməliyyatlar aparırsa, ƏDV üzrə əvəzləşdirmə üçün vergi tutulan dövriyyənin ümumi dövriyyədəki xüsusi çəkisinə uyğun olaraq müəyyən edilən ƏDV-nin məbləği qəbul olunur.

ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən həmin mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.

Sıfır («0») dərəcəsi ilə ƏDV tutulan əməliyyatlar ƏDV-yə cəlb olunan əməliyyatlar hesab edilir və belə əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş məbləğ Azərbaycan Respublikası Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq əvəzləşdirilir.

Göründüyü kimi, malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı büdcəyə ödənilməli olan ƏDV-nin məbləğinə iki faktor birbaşa təsir göstərir: hesablanan ƏDV məbləği və büdcə ilə əvəzləşdirilən ƏDV məbləği. Bu zaman hesablanan ƏDV məbləğinin artımı büdcəyə ödənilməli olan ƏDV məbləğinin artmasına müsbət, büdcə ilə əvəzləşdirilən ƏDV məbləğinin artması isə mənfi təsir göstərir. Eyni bir malın təqdim olunması ilə bağlı əməliyyatlar üzrə aparılmış təhlillər və hesablamalar göstərir ki, malların son istehlakçıya çatdırılmasına qədər olan mərhələlərdə ƏDV-dən azad olunan əməliyyatlar və ya ƏDV-yə «0» dərəcə ilə cəlb olunan əməliyyatlar aparan hər hansı vergi ödəyicisi iştirak etdiyi halda, təqdim olunma ilə bağlı əməliyyatlarda büdcəyə ödənilməli olan ƏDV məbləğləri müxtəlif həcmlərdə olur. Bunları eyni bir malın son istehlakçıya çatdırılmasının müxtəlif sxemləri üzrə qurulmuş misallardan daha aydın görmək olar.

***Misal 1.*** İlkin dəyəri 85 manat (ƏDV-siz) olan malın son istehlakçıya çatdırılması sxemində «A», «B», «C» və «D» vergi ödəyiciləri iştirak edir. Onların hər biri ƏDV ödəyicisi olmaqla, apardıqları əməliyyatlara ƏDV-ni 18% dərəcə ilə tətbiq edir və digər şəxslərə ödədikləri ƏDV-ni tam məbləğdə əvəzləşdirir. Misalda qəbul edilir ki, hər bir vergi ödəyicisi aldığı malın ƏDV-siz qiymətinə 10% qiymət artımı və 18% ƏDV əlavə etməklə növbəti alıcıya təqdim edir.

Malın son istehlakçıya çatdırılmasınadək vergi ödəyicisi «A» malı «B»-yə ƏDV daxil olmaqla 100 manata, «B» malı «C»-yə 110 manata, «C» malı «D»-yə 120 manata, «D» malı son istehlakçı olan «E»-yə 130 manata təqdim edir.

Bu halda büdcəyə ödənilməli olan ƏDV «A» vergi ödəyicisi üzrə 1 manat (15-14=1), «B» vergi ödəyicisi üzrə 2 manat (17-15=2), «C» vergi ödəyicisi üzrə 1 manat (18-17=1), «D» vergi ödəyicisi üzrə 2 manat (20-18=2), cəmi sxem üzrə büdcəyə ödənilməli olan ƏDV 6 manat (1+2+1+2=6) təşkil edir.

***Misal 2.*** Birinci misalın şərtlərində «A» vergi ödəyicisi sadələşdirilmiş vergi ödəyicisi olduqda malı «B»-yə ƏDV tətbiq olunmadan 85 manata, «B» malı «C»-yə 110 manata, «C» malı «D»-yə 120 manata, «D» malı son istehlakçı olan «E»-yə 130 manata təqdim edəcəkdir.

Bu halda «B» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 17 manat, əvəzləşdirilən ƏDV 0 manat, bücəyə ödənilməli olan ƏDV 17 manat (17-0=17), «C» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 18 manat, əvəzləşdirilən ƏDV 17 manat, bücəyə ödənilməli olan ƏDV 1 manat (18-17=1), «D» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 20 manat, əvəzləşdirilən ƏDV 18 manat, bücəyə ödənilməli olan ƏDV 2 manat (20-18=2), cəmi sxem üzrə büdcəyə ödənilməli olan ƏDV 20 manat (17+1+2=20) təşkil edir.

***Misal 3.*** Birinci misalın şərtlərində «D» vergi ödəyicisini ƏDV-yə «0» faiz dərəcə ilə cəlb olunan əməliyyatları aparan subyekt kimi qəbul etsək, «A» malı «B»-yə ƏDV daxil olmaqla 100 manata, «B» malı «C»-yə 110 manata, «C» malı «D»-yə 120 manata, «D» malı son istehlakçı olan «E»-yə ƏDV-ni «0» faiz dərəcə tətbiq etməklə 110 manata təqdim edəcəkdir.

Bu zaman «A» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 15 manat, əvəzləşdirilən ƏDV 14 manat, bücəyə ödənilməli olan ƏDV 1 manat (15-14=1), «B» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 17 manat, əvəzləşdirilən ƏDV 15 manat, bücəyə ödənilməli olan ƏDV 2 manat (17-15=2), «C» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 18 manat, əvəzləşdirilən ƏDV 17 manat, bücəyə ödənilməli olan ƏDV 1 manat (18-17=1), «D» vergi ödəyicisi üzrə hesablanmış ƏDV 0 manat, əvəzləşdirilən ƏDV 18 manat, bücədən qaytarılmalı olan ƏDV 18 manat (0-18= -18), cəmi büdcədən qaytarılmalı olan ƏDV 14 manat (1+2+1-18 = -14) təşkil edir.

Misallardan göründüyü kimi, eyni bir malın hərəkətində ƏDV-yə 18% dərəcə ilə yanaşı, vergidən azad olunan əməliyyatlar aparan vergi ödəyicisi iştirak etdikdə, büdcəyə ödənilməli olan ƏDV məbləği artmış olur, «0» faiz dərəcə vergiyə cəlb olunan əməliyyatlar aparan vergi ödəyicisi olduqda isə, büdcəyə ödənilməli olan ƏDV məbləği aşağı düşür.

# Regional innovasiya zonası yaradılacaq

İKT sektorunun dayanıqlı inkişafının təmin edilməsi, alternativ gəlir mənbələrinin yaradılması, yerli bazarların xarici investisiyalar üçün cəlbediciliyinin artırılması, habelə ölkədə qeyri-neft sektorunun davamlı inkişafı məqsədilə yeni innovativ sənaye sahəsi yaratmaq əsas prioritetlərdəndir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) ölkəmizdə yeni layihənin - regional innovasiya zonasının (RİZ) yaradılması üçün xarici ölkələrin nüfuzlu şirkətləri ilə



əməkdaşlığa başlayıb. ABŞ-ın aparıcı şirkətlərindən olan «Booz Allen Hamilton» ilə birgə hazırlanan RİZ-in pilot layihəsi hökumətə təqdim edilib. Nazir müavini Elmir Vəlizadə bildirib ki, hazırda qiymətləndirmə mərhələsində olan layihəyə bir sıra əlavə və düzəlişlər edildikdən sonra innovasiya zonalarının yaradılmasına başlanacaq.

Regional innovasiya zonaları çərçivəsində İKT sektoruna aid sahibkarlıq texnoparklarının, elektron avadanlığın və proqram məhsullarının istehsalı və ixracı üzrə rəqabətqabiliyyətli regional bazarın, xarici ölkələrə geniş elektron xidmətlərin göstərilməsini təmin edən, Qərblə Şərq arasında tranzit informasiya məkanının, həmçinin insan resurslarının inkişafına səbəb olan universitetin yaradılması da nəzərdə tutulur.

E.Vəlizadənin sözlərinə görə, RİZ-in fəaliyyəti, əsasən, beş məqsədi özündə birləşdirir. Başlıca istiqamət kiçik və orta sahibkarlıq subyektlərində texnoloji innovasiyaların tətbiqini sürətləndirməkdir. Layihəyə uyğun olaraq regional informasiya texnologiyaları universitetinin yaradılması və milli təşəbbüsün bir hissəsi olan insan ehtiyatlarının, onların İT üzrə bilik və bacarıqlarının üzə çıxarılması, imkanlarının inkişaf etdirilməsi planlaşdırılır. Bu layihəyə, həmçinin, beynəlxalq informasiya resursları mərkəzinin (Data Center) təşkili də daxildir.

RİZ qeyri-neft sənayesinin inkişafında mühüm rol oynadığından hökumət bu layihəni dəstəkləyir. Xarici ölkələrin təcrübəsinə əsasən, bu cür innovativ layihələrdən əldə olunan vəsaitlər milli gəlirdə xüsusi yer tutur. Azərbaycan 2020-ci ilə qədər qeyri-neft sektorunun ÜDM-dəki payını 80%-dək artırmaq niyyətindədir. Ölkəmizdə prioritet sahələr qeyri-neft sənayesi, İKT və turizm hesab olunur. Bu məqsədlə RİZ tipli layihələri inkişaf etdirməklə xarici investisiyaların həcminin artırılması, xüsusilə də Avropa İttifaqı ölkələrinin sərmayə yatırımlarında payının ikiqat çoxaldılması hədəf seçilib. Yeri gəlmişkən, Avropa İttifaqının xüsusi nümayəndəsi Herbert Salber RİZ layihəsində Azərbaycan hökumətinə dəstək göstərəcəyini bəyan edib. Aİ-nin bu layihəyə investisiya qoyuluşlarını artırması nəzərdə tutulur. Hazırda respublikamızın qeyri-neft sektoruna xarici sərmayə qoyan ölkələr arasında Aİ ölkələrinin payı təxminən 37% təşkil edir. İndiyədək Aİ üzvü olan 17 ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanıb və bu istiqamətdə tədbirlər davam etdirilir. Bu isə Aİ dövlətlərinin Azərbaycanın qeyri-neft iqtisadiyyatına potensial sərmayə qoyuluşlarına töhfə verəcək.

RİZ layihəsinə yeni sərmayələrin, xüsusilə də birbaşa xarici investisiyaların artımına nail olmaq üçün investisiya mühitinin təkmilləşdirilməsi, Azərbaycan və region bazarında kommersiya ehtiyaclarının ödənilməsi, davamlı sosial və texnoloji inkişafın dəstəklənməsi məqsədilə elmi-texnoloji fəaliyyətə, tədqiqatlara, iş prosesinə sərmayə qoyan və ya bu tipli fəaliyyətlə məşğul olan İKT şirkətləri, eləcə də yerli, regional və qlobal texnoloji şirkətlər üçün az riskli, innovativ və münbit biznes mühitinin yaradılması nəzərdə tutulur. Bu məqsədlə hökumətə layihədə investorlar üçün bir sıra güzəştlərin nəzərə alınması təklif edilib. Təkliflərdə, həmçinin, gömrük prosedurlarının sadələşdirilməsi, ƏDV və gömrük rüsumlarından azad edilmə, azad vergiqoymanın tətbiqi, ixracın sadələşdirilməsi üçün güzəştli kreditlərin verilməsi və digər xüsusi stimullaşdırıcı addımlar da yer alıb. Elmir Vəlizadənin sözlərinə görə, bu zonanın yaradılması ölkə iqtisadiyyatında informasiya və kommunikasiya texnologiyaları sektorundan gəlirlərin ümumi həcmini artıracaq, sahəyə potensial investorlar cəlb edəcək, elektrik avadanlığının istehsalı prosesində yeni iş yerlərini yaratmağa imkan verəcək, ölkəyə müasir texnologiyaların idxalını artıracaq və Azərbaycanın ixrac potensialını gücləndirəcək.

Gözlənilir ki, bu cür tədbirlərin uğurla həyata keçirilməsi 2020-2025-ci illərdə İKT sektoru gəlirlərinin neft sektorundan daxil olan gəlirlərə çatmasına imkan verəcək və İKT sənayesi ölkə iqtisadiyyatının inkişafında ön mövqeyə çıxacaq.

**E.CƏFƏRLİ**

# Rusiya Azərbaycan regionlarına investisiya qoymağı planlaşdırır

Rusiya hökuməti Azərbaycanda regionların inkişafı ilə bağlı dövlət proqramlarında nəzərdə tutulan layihələrdə iştirak etmək niyyətini bəyan edib. Rusiya Federasiyası regionların inkişafı naziri İqor Slyunyayev bildirib ki, Azərbaycanda aqrar-sənaye komplekslərinin və aqroparkların yaradılması rus investorları üçün böyük maraq kəsb edir. Son beynəlxalq proseslərlə əlaqəli Rusiyanın kənd təsərrüfatı və yeyinti sənayesi məhsulları ticarətində yaranmış problemlər ölkənin bisnes dairələrini yeni bazarların axtarışına sövq edir. İ.Slyunyayevin sözlərinə görə, rus iş adamları Azərbaycanı əsas ticarət tərəfdaşları kimi görür və onlar bu ölkədə yaradılması planlaşdırılan yeni aqrar layihələrdə təmsil olunmağı düşünürlər. Birgə layihələrin icrası sayəsində kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və Rusiya bazarlarında istehlaka yönəltmək mümkün hesab edilir.

Nazir qeyd edib ki, bir müddət əvvəl Bakıda keçirilən Azərbaycan-Rusiya regionlararası forumunda RF Regionların İnkişafı Nazirliyi ilə Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb və həmin sənədə əsasən, aqrar sahədə yeni perspektivlər və qarşılıqlı investisiyaların cəlb edilməsi prioritet kimi müəyyən edilib. Yaxın günlərdə hər iki ölkənin sahibkarları arasında birgə biznes-planın hazırlanması gözlənilir. Həmin layihələr çərçivəsində regionların inkişafına təxminən 500-600 milyon dollar investisiya qoyulacağı gözlənilir. Qeyri-neft sektorunu əhatə edən bu layihələrin reallaşması Azərbaycanın bölgələrində yeni iqtisadi subyektlərin və iri aqrar təsərrüfatların yaranmasına səbəb olacaq.

Rusiya Baş nazirinin müavini Dmitri Roqozin bildirib ki, hazırda Azərbaycanda Rusiya kapitalı əsasında 570 şirkət fəaliyyət göstərir və onların ölkənin iqtisadiyyatına yönəltdiyi investisiyaların həcmi 1,8 milyard dollardan çoxdur. Qarşıdakı 5 ildə bu rəqəmin iki dəfə artırılması proqnozlaşdırılır. Hazırda rus sərmayəsinin regionlara qoyuluşunu artırmaq üçün müxtəlif stimullaşdırıcı addımların atılması barədə təkilflər nəzərdən keçirilir. Əsas təkliflərdən biri Azərbaycan-Rusiya birgə investisiya fondunun yaradılmasıdır. Fond iri layihələrin həyata keçirilməsinə yardım etmək məqsədi daşıyır. Rusiya bu cür fondları Cənubi Koreya, Çin, Qətər, Küveyt və digər ölkələrdə yaradıb.

Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədovun sözlərinə görə, regionların sosial-iqtisadi inkişafı proqramlarında xarici iş adamlarının iştirakı və bölgələrə sərmayələrin cəlb olunması həyata keçirilən əsas iqtisadi tədbirlərdəndir. Ötən 10 ildə iki dövlət proqramı çərçivəsində regionların inkişafına 50,7 milyard manat vəsait yönəldilib ki, onun təxminən 10 milyard manatı xarici sərmayələrdir. Yeni proqrama 5 il ərzində 30 milyard manata qədər sərmayə qoyuluşu proqnozlaşdırılır. Xarici sərmayələrin bölgələrə axınını çoxaltmaq üçün investisiyaların təşviqi, qeyri-neft sektorunda layihələrin, o cümlədən aqrar-sənaye müəssisələrinin və aqrar parkların, sənaye məhəllələrinin həyata keçirilməsini stimullaşdırmaq məqsədilə güzəştli investisiya mühitinin təmin olunması nəzərdə tutulur. Bu məqsədlə regionlardakı qeyri-neft ehtiyatlarının istehsal imkanlarını artırmaq, istifadə edilməmiş iqtisadi və təbii resursları istehsala cəlb etmək, elmtutumlu rəqabətqabiliyyətli milli istehsalı formalaşdırmaq, elmin istehsala inteqrasiyasını daha da gücləndirmək əsas strateji tədbirlər hesab olunur. Azərbaycan yaxın 7-8 ildə ümumi daxili məhsulun həcmini iki dəfə artırmağı, əsas etibarilə qeyri-neft sektorunun hesabına təmin etməyi iqtisadi prioritetlərdən biri kimi müəyyən edib. Azərbaycanın İqtisadiyyat və Sənaye, Kənd Təsərrüfatı nazirlikləri ilə birgə bölgələrdə müasir standartlara cavab verən müasir aqrar logistika mərkəzləri, soyuducu kameralar yaradılacaq. Bölgələrdə istehsal olunan məhsullar həm yerli tələbatın ödənilməsinə, həm də ixracın artırılmasına yönəldiləcək.

Yeni proqram çərçivəsində sahibkarlıq subyektlərinin fəaliyyəti üçün biznes mühiti daha da təkmilləşəcək, aqrar sektorda intensiv metodların tədbiqi sürətlənəcək.

Rusiyalı sahibkarların regionların inkişafına dair dövlət proqramlarında iştirakını artırmaq üçün RF Regionların İnkişafı Nazirliyi də müxtəlif təşviqedici tədbirlər görməyi nəzərdə tutur.

**ELBRUS**

# Əmək müqaviləsi - gələcəyin zəmanəti

Dünyanın hər yerində qeydiyyatsız məşğulluq özəl sektor üçün xarakterik fenomen sayılır. Bu problem Azərbaycanda da öz ciddiyyətini saxlayır. Azərbaycan qanunvericiliyi əmək müqaviləsindən yayınan müəssisələr və onların vəzifəli şəxsləri üçün xeyli yüksək məbləğdə cərimələr nəzərdə tutur. İnzibati Xətalar Məcəlləsinə əsasən, işəgötürənlərin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsini bağlamadan hər hansı işə (xidmətə) işçi cəlb etməsi aşkarlanarsa, bu məsələyə məsul vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, onların təmsil etdiyi hüquqi şəxslər isə 20000 manatdan 25000 manatadək cərimə edilir. Vergi Məcəlləsinin 58-ci maddəsinə görə, işəgötürənlər tərəfindən muzdlu işçilərin müqaviləsiz əmək fəaliyyətinə cəlb edilməsi və bu yolla əmək gəlirlərinin azaldılması halı aşkarlanarsa, sahibkarlara müqaviləsiz çalışdırılan hər bir işçi üçün 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

«Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 2013-cü il 27 dekabr tarixli Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Prezident İlham Əliyevin 2014-cü il 3 fevral tarixli fərmanı ölkəmizdə əmək münasibətlərinin rəsmiləşdirilməsində keyfiyyətcə yeni mərhələ açaraq, əmək müqavilələrinin bağlanmasında formal yanaşmalardan irəli gələn və işçinin gələcək sosial təminat hüququnu sual altında qoyan, qeyri-leqal məşğulluq hallarına gətirib çıxaran stereotiplərin aradan qalxmasına, əmək bazarına dövlət nəzarətinin güclənməsinə şərait yaradıb. Fərmana əsasən, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün yalnız əmək müqaviləsinin bağlanması deyil, bağlanmış əmək müqaviləsi barədə bildirişin elektron informasiya sistemində qeydiyyata alınması və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsi əsas şərt kimi irəli sürülür.

İqtisadçı ekspert Vüqar Bayramov bu qanunun praktiki olaraq əmək müqavilələrinin bağlanması, elektronlaşması və eləcə də prosesə nəzarət baxımından yeni bir mərhələnin əsasını qoyduğunu demişdir: «Əmək müqavilələrinin bağlanmasında və qeydiyyatında elektron hökumət elementlərinin tətbiq edilməsi ölkəmizdə şəffaflığın artırılması və büdcəyə nəzarətin gücləndirilməsi ilə bağlı əsas prioritetlərə müvafiq olaraq həyata keçirilməyə başlanılması deməkdir. Elektron informasiya sisteminin tətbiq edilməsi əmək müqavilələrinin bağlanması prosesinə nəzarətin gücləndirilməsinə və məlumatların müvafiq dövlət qurumları arasında elektron bölüşdürülməsinə imkan verəcəkdir. Bu baxımdan, sözügedən islahat birmənalı şəkildə əmək müqavilələrinin bağlanması ilə bağlı öhdəliklərdən yayınmaların qarşısının alınmasına yardım edəcək».

Yeni elektron sistemin tətbiq edilməsi Vergilər Nazirliyinin bu istiqamətdəki fəaliyyətinin genişləndirilməsinə imkan verəcək və məlumatların elektron informasiya sisteminə daxil edilməsi bu sahədə şəffaflığın, iş yerlərində bağlanılan əmək müqavilələrinin sayının artımına gətirib çıxaracaq. Bu, həmçinin, gəlir vergisi və sosial ödənişlərlə bağlı hesablamaların düzgün aparılmasında, qeyri-leqal məşğulluqla mübarizədə önəmli rol oynayacaq.

Əmək münasibətlərinin rəsmiləşdirilməsinin EİS-də qeydiyyata alınması prosesinə keçidi Azərbaycanda əmək hüquqlarının təminatı sahəsində uğurlu islahat kimi qiymətləndirmək olar. «EİS-də qeydiyyatın aparılması əmək hüquqlarının qorunması baxımından da olduqca əhəmiyyətlidir. Aydındır ki, əmək müqaviləsi yoxdursa, əmək hüquqlarının da qorunması praktik olaraq mümkün deyil. Əmək müqavilələrinin bağlanması və elektron qeydiyyatının aparılması, sadəcə, vergi daxilolmalarının artması, pensiya yığımlarının yaxşılaşdırılması deyil, həm də əmək hüquqlarının qorunması baxımından olduqca vacibdir. Bu, imkan verir ki, işçinin iş yerində hüquqlarını qorumaq mümkün olsun və praktik olaraq əmək münasibətləri sivil müstəviyə keçsin. Digər tərəfdən, elektron informasiya sistemi işçiyə məzuniyyət hüququ da daxil olmaqla, digər əmək hüquqlarından faydalanmaq imkanı verir».

Yeni sistem vergidən yayınmaların qarşısının alınmasına ciddi təkan verir. Ona görə də vergi nəzarətinin gücləndirilməsi dövlət orqanı ilə sahibkar arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşması baxımından əlverişlidir. Əslində, son illər Vergilər Nazirliyi tərəfindən bu inamın artırılması ciddi şəkildə müşahidə olunur. V.Bayramov qeyd etmişdir: «2012-ci ilin dekabrında Vergi Məcəlləsinə edilən əlavə və dəyişiklikdən sonra Azərbaycanda vergi orqanları ilə sahibkarlar arasında yeni əməkdaşlıq formasının tətbiqinə başlanılıb. Vergi orqanları ilə sahibkarlar vergi partnyorluğu sazişi bağlamaq hüququnu əldə ediblər. Sazişin vergi orqanlarına əsas faydası verginin könüllü ödənilməsinin artması və vergidən yayınmanın qarşısının alınmasıdır. Əməkdaşlıq nəticəsində sahibkar mühasibat sistemini avtomatlaşdırır, elektron sənəd dövriyyəsinə keçir, vergi orqanının sahibkarın maliyyə əməliyyatlarını izləmək imkanı yaxşılaşır, sahibkarlar vergiləri tam şəkildə ödəyir, ikili mühasibat aradan qalxır və dövlət büdcəsinə vergi ödənişləri artır. Göründüyü kimi, qanunda edilən son dəyişikliklərədək də vergi orqanları tərəfindən etimadın artırılması, əmək müqavilələrinin bağlanması və elektronlaşdırılması kimi təşviqedici fəaliyyətlər həyata keçirilmişdir».

Bu sistemin tətbiqi Azərbaycanda qeydiyyatsız məşğulluğa son qoya bilərmi? V.Bayramovun fikrincə, son dəyişiklik qeydiyyatsız məşğulluğun aradan qaldırılması istiqamətində irəliyə doğru atılan çox ciddi bir addımdır. Beynəlxalq təcrübə də göstərir ki, elektronlaşma qeydiyyatsız və ya gizli məşğulluğun aradan qaldırılmasında ən uğurlu vasitələrdən biridir, məşğulluğun leqallaşması və qeydiyyata alınması üçün institusional, hüquqi və infrastruktur bazası yaradır. Təbii ki, elektron iformasiya sisteminin tətbiqi birmənalı şəkildə leqal məşğulluğun formalaşdırılmasına xidmət edəcək...

**Fəxriyyə İKRAMQIZI**

aktual

# Sahibkarların maraqları qorunur

***Hörmətli oxucular! Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən sahibkarlar üçün daha aktual məsələlər, izahı tələb olunan normativ-hüquqi aktlarla bağlı ən mühüm istiqamətlər üzrə məsləhət səciyyəli materiallar hazırlanmışdır. Məqsəd vergi ödəyicilərini bəzən mahiyyətini bilmədən yol verdikləri qanun pozuntularından qorumaqdır. Bu silsilədən növbəti yazını diqqətinizə çatdırırıq.***

## *Operativ nəzarət: Xronometraj metodu ilə müşahidə aparılması*

Vergi Məcəlləsinə əsasən, xronometraj metodu ilə müşahidə aparmaq vergi orqanlarının hüquqlarına aiddir. Xronometraj metodu ilə müşahidə operativ vergi nəzarəti növü olmaqla, istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədilə vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılmasına aid istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) aparılır.

Müşahidə keçirilən obyektlərdə satılmış malların və ya göstərilmiş xidmətlərin, görülmüş işlərin müqabilində çekin vurulması (qəbzin yazılması) və müştərilərə verilməsi, çeklərdəki (qəbzlərdəki) məbləğlərin ödənilmiş məbləğlərə uyğun olmasına nəzarət edilir və uçotdan yayınma halı olduqda müvafiq qaydada bərpa olunması təmin edilir.

Xronometraj metodu ilə müşahidə 15 iş günündən çox olmayan müddətdə aparılır. Bu proses zamanı müəyyən edilmiş göstəricilər hər iş gününün sonunda müvafiq aktla rəsmiləşdirilir. Tərtib edilmiş gündəlik aktlar müşahidəni aparan müfəttişlər və vergi ödəyicisi (və ya onun səlahiyyətli nümayəndəsi) tərəfindən imzalanır, vergi ödəyicisi (və ya onun səlahiyyətli nümayəndəsi) aktda öz qeydlərini edə bilər, ödəyici aktı imzalamaqdan imtina etdiyi halda müfəttiş tərəfindən müvafiq qeydlər aparılır.

Sonuncu gün müşahidənin nəticəsi müəyyən edilmiş gündəlik göstəricilər əsasında orta günlük göstərici hesablanmaqla ümumiləşdirilir və obyekt üzrə «Xronometraj metodu ilə aparılan müşahidənin nəticəsi barədə» yekun akt tərtib edilir, xronometraj aparan müfəttişlər və vergi ödəyicisi (və ya onun səlahiyyətli nümayəndəsi) tərəfindən imzalanır.

Bununla belə, xatırlatmaq zəruridir ki, yeni xronometraj metodu ilə müşahidə keçirilməsi haqqında tələbi vergi ödəyicisi istənilən vaxt, lakin sonuncu xronometraj metodu ilə müşahidədən ən azı 1 ay keçdikdən sonra, növbəti dəfə isə sonuncu müşahidədən ən azı 2 ay keçdikdən sonra təqdim edə bilər.

Vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olan dövrədək (vergi ödəyicisinin Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada fəaliyyətini dayandırdığı, xronometrajın keçirildiyi dövrü əhatə edən səyyar vergi yoxlamasının keçirildiyi hallar istisna olmaqla) xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər.

# Pensiya yığımları üçün imkanlar genişlənir

2006-cı ildən ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura əsaslanan əmək pensiyaları sistemi fəaliyyət göstərir. Dövlət Sosial Müdafiə Fondunun rəsmilərinin açıqladığı məlumatlara görə, 2006-cı il yanvarın 1-nə ölkə üzrə pensiyaların orta aylıq məbləği 29,8 manat olduğu halda, 2007-ci il yanvarın 1-nə 41,1 manat, 2008-ci il yanvarın 1-nə 62,9 manat, 2009-cu il yanvarın 1-nə 95,8 manat, 2010-cu il yanvarın 1-nə 100,4 manat, 2011-ci il yanvarın 1-nə 112,9 manat, 2012-ci il yanvarın 1-nə 145,1 manat, 2013-cü il yanvarın 1-nə 152 manat təşkil edib. Hazırda isə bu rəqəm 172,2 manata çatıb.

Pensiyaçıların sosial müdafiəsinin diqqətdə saxlanılması və gücləndirilməsi istiqamətində görülən işlərdən biri də qeyri-dövlət pensiya fondlarının yaradılması ilə bağlıdır. Qeyri-dövlət pensiya fondlarının formalaşdırılması və inkişafı «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»nda yer alıb. Dövlət proqramında qeyd edilir ki, qeyri-dövlət pensiya fondlarının yaradılması və fəaliyyəti üçün müvafiq tənzimləyici qanunvericilik bazası olmalıdır. Qanunvericilik bazasının yaradılması imkan verəcək ki, fondlara sosial sığorta haqlarını könüllülük prinsipi əsasında toplamağın qaydaları, bu vəsaitlərin fərdi hesablarda formalaşdırılması üçün maliyyə bazarlarında yerləşdirilməsi üzərində nəzarət mexanimzləri, toplanacaq kapital əsasında təyin ediləcək qeyri-dövlət pensiyalarının konkret formulu müəyyənləşdirilsin.

DSMF sədri Elman Mehdiyevin sözlərinə görə, qeyri-dövlət pensiya fondları 2015-ci ildən sonra fəaliyyətə başlaya biləcək. Onun sözlərinə görə, artıq bu fondların yaradılması üçün qanunvericilik bazasının hazırlanmasına başlanıb: «Qeyri-dövlət pensiya fondları fəaliyyət xüsusiyyətlərindən irəli gələrək bir çox istiqamət üzrə funksiyalar yerinə yetirəcəkdir ki, bu da gələcəkdə həmin fondlar tərəfindən fəaliyyətlərin tam və qanunvericiliyə uyğun şəkildə təşkil edilməsi, effektiv idarəetmə mexanizmlərinin tətbiq olunması üçün öncədən ciddi və hərtərəfli hazırlıq işlərinin aparılmasını zəruri edir. Nəzərdə tutulan funksiyalar qeyri-dövlət pensiya təminatı məqsədləri üçün haqların toplanması, pensiya hesablarının aparılması, həmin hesabların vəziyyəti barədə aidiyyəti şəxslərin məlumatlandırılması, ehtiyatların formalaşdırılması, vəsaitlərin yerləşdirilməsi və əlaqədar investisiya siyasətinin aparılması, qeyri-dövlət pensiya təminatı üzrə münasibətlərin digər iştirakçıları ilə işin təşkili, nizamnamə fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan əmlakın və pensiya ehtiyatı vəsaitlərinin ayrıca uçotunun aparılması, öhdəliklər üzrə aktual hesablamaların həyata keçirilməsi, qeyri-dövlət pensiyalarının təyinatı və ödənilməsi və digər istiqamətlərlə bağlıdır».

Pensiyaların artım dinamikası
(manatla)




Fond sədrinin sözlərinə görə, qeyd edilənlərlə bağlı beynəlxalq təcrübəyə əsaslanan qayda və prosedurlar DSMF və Avropa İttifaqının birgə layihəsi çərçivəsində hazırlanması nəzərdə tutulan qeyri-dövlət pensiya fondlarına dair qanunvericilikdə təsbit olunacaqdır. Bildirilmişdir ki, qeyri-dövlət pensiya fondlarının formalaşdırılmasında və inkişaf etdirilməsində yerləşdirilən vəsaitlərin qorunması, investisiya portfelinin strukturunun etibarlılıq, gəlirlilik, diversifikasiya, likvidlik və digər vacib amillər əsasında müəyyən edilməsi, peşəkar idarəetmə sisteminin, habelə məlumat açıqlığının və şəffaflığın təmin edilməsi və s. bu kimi başlıca prinsiplərin əsas götürülməsi zəruridir. E.Mehdiyev vurğulayıb ki, pensiya vəsaitlərinin yerləşdirilməsi ilə bağlı investisiya siyasəti müəyyənləşdirilərkən bir sıra mühüm amillərin mümkün təsiri də diqqətlə öyrənilməlidir. Çünki bir tərəfdən özəl pensiya sistemlərinin öz iştirakçılarını gələcəkdə yüksək pensiya gəliri ilə təmin etmək məqsədi daha aktiv investisiya fəaliyyətini stimullaşdırır, digər tərəfdənsə pensiya vəsaitlərinin qorunmasının təmin edilməsi vəsaitlərin yerləşdirilməsi üzrə müxtəlif məhdudiyyətlərin tətbiqini, ehtiyatlılıq prinsipinə əməl olunmasını zəruri edir. Qeyd edilən məsələlərin adekvat həlli üçün balanslaşdırılmış investisiya siyasətinin müəyyən olunması, habelə risklərin idarə edilməsi üzrə effektiv sistem və prosedurların işlənməsi vacibdir.

Qeyd edək ki, qeyri-dövlət pensiya fondlarının yaradılması vətəndaşlara dövlət pensiya fondlarından əlavə, qeyri-dövlət pensiya fondlarına da ödənişlər etməyə, öz gələcəyi üçün yığım yaratmağa imkan verəcək. Bu fondlara ödəniş etmək könüllülük prinsipi əsasında həyata keçiriləcək.

**AYTƏN**

# Xarici investisiyaların stimullaşdırılması üçün təkliflər hazırlanır

Azərbaycan hökuməti ölkənin qeyri-neft sektoruna xarici investisiyaların artırılması məqsədilə stimullaşdırıcı təkliflər hazırlayır. Bu məsələ Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2014-2015-ci illər üçün imzalanan Baş Kollektiv Sazişdə də öz əksini tapıb.

Sənəddə qeyd olunur ki, yerli məhsulların istehsal həcmini, əməyin səmərəliliyini, malların keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltmək məqsədilə yerli istehsalçılara yardımın artırılmasını, qanunvericilik və beynəlxalq hüquq normaları əsasında daxili və xarici bazarlarda ölkənin yerli istehsalçılarının mənafelərinin müdafiəsini, istehsal olunmuş hazır məhsulların dünya bazarlarına ixracını stimullaşdıran tədbirlər sistemi gücləndirilməlidir.

Sazişdə vurğulanır ki, torpaqların münbitliyinin qorunması və artırılmasına dair tədbirlər planının hazırlanması və həyata keçirilməsinə nəzarətin gücləndirilməsi, şoranlaşmış, eroziyaya uğramış torpaqlarda sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi diqqət mərkəzində olacaq. Bundan başqa, ölkənin Ümumdünya Ticarət Təşkilatına daxil olması üçün səylər davam etdiriləcək. İstehsalın həcminin artırılması və yeni iş yerlərinin yaradılması məqsədilə kiçik və orta sahibkarlıq subyektləri üçün dövlət maliyyə dəstəyinin davam etdirilməsi, bu dəstəyin səmərəli təşkil olunması məqsədilə dövlət-sahibkar münasibətlərinin institusional mexanizmlərinin daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

Bundan başqa, təbii inhisarçıların xidmətlərinə və məhsullarına qoyulan qiymətlərə (tariflərə) yenidən baxılması prosesində üçtərəfli məsləhətləşmələrdən istifadə ediləcək. İstehlak bazarında qiymətlərin əsassız artmasına təsir göstərən inhisarçılığın, rəqabətin məhdudlaşdırılması, bazarların bölüşdürülməsi, razılaşdırılmış yüksək qiymətlərin tətbiqi kimi neqativ halların qarşısının alınması üçün birgə monitorinqlərin həyata keçirilməsi, nəticələr barədə ictimaiyyətin məlumatlandırılması məsələləri də diqqət mərkəzində olacaq.

Həyata keçiriləcək tədbirlər son 10 ildə ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətində atılan addımların davamı olacaq. Ötən illərdə görülən tədbirlər regionlara yerli və xarici investisiya yatırımlarının sürətlənməsinə ciddi təkan verib.

Respublikamızda xarici şirkətlərin investisiya fəaliyyəti 1995-ci il 13 yanvar tarixli «İnvestisiya fəaliyyəti haqqında» qanunla tənzimlənir. Qanun, mülkiyyət formasından asılı olmayaraq, bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Hökumətin ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə həyata keçirdiyi «Açıq qapı» siyasətinin əsas hədəfi ölkə iqtisadiyyatının neftdən asılılığının tamamilə azaldılması və neftdən gələn gəlirlərin qeyri-neft sektoruna yönəldilməsidir.

Ötən illərdə respublikada investorların hüquq və mənafelərinin qorunmasına, mülkiyyətin toxunulmazlığına, yerli və xarici sahibkarlara bərabər iş şəraitinin yaradılmasına, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunmasına imkan verən mühüm qanunlar qəbul edilib. Azərbaycan hökuməti bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb. Bu məqsədlə ölkədə lisenziyalaşdırma sisteminin sadələşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilib, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilib, lisenziyanın müddəti 2 ildən 5 ilə qədər uzadılıb. Bundan başqa, fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatına alınması prosedurları xeyli sadələşdirilib, əvvəllər mövcud olmuş problemlər aradan qaldırılıb.

Azərbaycan hökumətinin müraciəti ilə Beynəlxalq Maliyyə Korporasiyasının dəstəyi əsasında Dünya Bankının Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti (FIAS) Azərbaycanda investisiya mühitinin monitorinqini aparıb, bu mühitin yaxşılaşdırılması məqsədilə birgə tədbirlər planı müəyyənləşdirilib. Həmin tədbirlərin icrası istiqamətində atılmış ilk addımlardan biri Azərbaycanda İnvestisiyaların Təşviqi və Məsləhət Fondunun təsis edilməsi olub. Fondun məqsədi münbit investisiya mühitini müəyyənləşdirən şərtlər sisteminin təşkilindən, sahibkarlığın ümumi mədəniyyətinin artırılmasından, habelə investisiya fəaliyyətinin informasiya təminatının möhkəmləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsindən, bu sahədə fəaliyyət göstərən digər qurumların dəstəklənməsindən, onlarla sıx əməkdaşlıq münasibətlərinin qurulmasından ibarətdir.

Respublikanın iqtisadi resurslarının düzgün və məqsədyönlü realizə edilməsi, real sektorun dəstəklənməsi, sənayeləşmənin vergi yolu ilə stimullaşdırılması, maliyyə-bank sektorunun fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, vergi mühitinin liberallaşdırılması tədbirləri də ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə öz təsirini göstərir.

2003-2013-cü illərdə ölkə iqtisadiyyatına 120 milyard dollar investisiya qoyulub. Son investisiya cəlbini sürətləndirmək istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də 2006-cı ildə Azərbaycan İnvestisiya Şirkətinin yaradılmasıdır. Şirkətin başlıca vəzifəsi ölkə iqtisadiyyatına investisiyaların təşviqini təmin etmək, bu sahədə mövcud problemlərin aradan qaldırılmasına çalışmaqdır. Şirkətin fəaliyyətinin prioritet istiqamətlərindən biri də Azərbaycan müəssisələrinin, eləcə də yerli və ya xarici investorların ixracyönümlü və idxalın əvəzləşdirilməsinə yönəlmiş layihələrində iştiraka cəlb olunmasıdır.

Onu da qeyd edək ki, ötən il Azərbaycan iqtisadiyyatına yönəldilmiş 28 milyard dollar həcmində investisiyanın 10,5 milyard dollarını xarici sərmayələr təşkil edib. 2014-cü ilin birinci yarısında ölkə iqtisadiyyatına böyük həcmdə - 7,6 milyard manat həcmində investisiya yönəldilməsi də kifayət qədər yüksək göstəricidir. Bütövlükdə isə il ərzində ölkəyə qoyulacaq investisiyaların həcminin 20 milyardı ötəcəyi gözlənilir.

Ölkəmiz xarici sərmayə bazarlarında da fəal şəkildə yer almağa başlayıb. Azərbaycanın investisiyalar qoyduğu ölkələrin coğrafiyasına Türkiyə, Gürcüstan, Malayziya, Çexiya, Moldova, Ukrayna, Belarus və digər dövlətlər daxildir.

**S.ELMANOĞLU**

# Qarşılıqlı inam və etimad körpüsü

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi partnyorluğu sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Müsabiqədə yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

Vergi partnyorluğu sazişinin bağlanılmasına dair Nazirlər Kabinetinin qaydalarında bildirilir ki, vergi partnyorluğu sazişi vergi orqanı ilə vergi ödəyicisi arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanmaqla, vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılan niyyət razılaşmasıdır.

Sazişin bağlanılmasında əsas məqsəd sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək; müasir idarəetmə alətləri tətbiq etməklə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək; vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək; ədalətli, çevik və səmərəli vergi nəzarəti yaratmaq; nəhayət, vergi risklərini minimallaşdırmaqdır.

Partnyorluq sazişi hər vergi ödəyicisi ilə bağlanmır. Sazişin bağlanması zamanı vergi öhdəliklərini tam və vaxtında icra edən, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən, sertifikatlaşdırılmış proqram təminatı ilə mühasibat uçotu aparan, ƏDV ödəyicisi və maliyyə xidmətlərini həyata keçirən kredit və sığorta təşkilatları olan vergi ödəyicilərinə üstünlük verilir.

Vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyən edildikdə vergi orqanı tərəfindən sazişin bağlanılmasından yazılı məlumat verməklə imtina edilir.

Vergi partnyorluğu sazişinin əhəmiyyətini mütəxəssislərin şərhindən də görmək olar. Vergilər Nazirliyinin Vergi Siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Telman Hüseynli bildirib ki, partnyorluq sazişini bağlamaqla vergi orqanı və sahibklar bir sıra öhdəlikləri öz üzərinə götürür.

Razılaşmaya əsasən, sahibkar mühasibat uçotunun mühasibat sənədləri əsasında davamlı aparılmasını təmin etməlidir, eyni zamanda bütün təsərrüfat əməliyyatlarının qeydiyyatı elektron formada həyata keçirilməli, bütün işçillərlə əmək müqaviləsi bağlanılmalı, işçilərə verilən əməkhaqqı əmək müqaviləsində tam əksini tapmalıdır.

T.Hüseynlinin sözlərinə görə, partnyorluq sazişinin sahibkara verdiyi üstünlük ilk növbədə birbaşa vergi nəzarəti tədbirlərinin minimuma endirilməsidir. Vergi orqanı partnyorluq sazişi bağladığı sahibkara kənardan nəzarət edir. İdarə rəisinin mövqeyinə görə, bunun sahibkara böyük xeyri var. Əgər sahibkar müyyən əməliyyatla bağlı səhvə yol verərsə, onun fəaliyyətinə kənardan nəzarət olduğundan vergi orqanları sahibkara səhvə yol verdiyini vaxtında bildirir və həmin səhvi düzəltməyə kömək edir. Məsələn, əməkhaqqı üzrə vergi borcunun hesablanmasında səhv olarsa, bu səhv sahibkara vaxtında məsləhət şəklində çatdırılır. Nəticədə sahibkar səhvə görə cərimələnmir, ona səhvinin düzəldilməsinə kömək edilir. Həmin sahibkarla partnyorluq sazişi olmayacağı halda növbəti vergi yoxlanılmasına qədər bu səhv bilinməyəcək və səhvlər təkrarlanacaqdı. Səhv məhz yoxlama zamanı üzə çıxdığından və həmin səhvlərlə əlaqədar vergidən yayınma faktı aşkarlandığından sahibkar cərimələnəcəkdi.

T.Hüseynli deyir ki, sazişin sahibkar üçün digər üstünlüyü səyyar vergi yoxlanılmasının azaldılmasıdır. Vergi qanunvericiliyinə əsasən, sahibkar ildə bir dəfə səyyar vergi yoxlanılması şəklində 30 gün yoxlanıla bilər. Bundan başqa, il ərzində bir neçə dəfə müxtəlif formada nəzarət tədbirləri olur.

Partnyorluq sazişi bağlanıbsa, həmin sahibkarın səyyar vergi yoxlanılması keçirilmir, birbaşa nəzarət tədbirləri isə minimuma endirilir. İstənilən sahibkar yaranan suallar və problemlərlə bağlı vergi orqanlarına müraciət edib cavab almaq hüququna malikdir. Lakin partnyorluq münasibətləri olan sahibkarlarla bu, daha operativ formada həyata keçirilir. Partnyorluq sazişi bağlayan sahibkarlar öz məlumatlarını mütəmadi qaydada vergi orqanlarına təqdim etdiklərinə görə yaranan suallar müntəzəm cavablandırılır, qanunvericiliyə uyğun şəkildə məsləhət verilir. Bu da sahibkarın gələcəkdə vergilərlə bağlı problemin yaranması riskini minimuma endirir.

*2012-ci ilin dekabrında Vergilər Məcəlləsinə edilən əlavə və dəyişiklikdən sonra Azərbaycanda vergi orqanları ilə sahibkarlar arasında əməkdaşlığın yeni formasının tətbiqinə başlanılıb*

Üstünlüklərlə yanaşı, sahibkar məsuliyyətli olmalı, bilərəkdən vergidən yayınmamalıdır. Əgər belə hal baş verərsə, vergi orqanı partnyorluq müqaviləsini pozur. Partnyorluq sazişinin pozulması sahibkarın imicinə mənfi təsir edir və vergi orqanı həmin sahibkarın işini dərindən yoxlamağa başlayır. «Bu saziş onu göstərir ki, vergi orqanı sahibkarlarla əməkdaşlıqda maraqlıdır, əməkdaşlıqdan qaçmır. Vergi orqanı biznesdən kənarda deyil, biznesin təşkilində, idarəedilməsində sahibkarla əməkdaşlıq edir».

Millət vəkili, Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədovun şərhinə görə, partnyorluq sazişi sahibkardan və vergi orqanından düz işləməyi tələb edir. Hər hansı sazişdən asılı olmayaraq, qanunvericilik vergi orqanlarının və sahibkarların qarşısında qəti tələb qoyur. Qanunvericiliyin tələbinə əsasən, vergi orqanı səlahiyyətlərindən kənara çıxmamalıdır, sahibkar isə fəaliyyətinə aid olan vergi növü üzrə vergi borclarını tam və vaxtında ödəməlidir.

V.Əhmədovun sözlərinə görə, vergi partnyorluğu sazişlərinin bağlanması üçün qoyulan şərtlər qanunlarda mövcuddur. Bununla belə, niyyət sazişlərinin bağlanılması sahibkarlar üçün faydalıdır və bunun müsbət nəticələri hökmən özünü göstərəcək: «Sahibkarlar vergi orqanları ilə nə qədər sıx əməkdaşlıq edərsə, bu, ilk növbədə sahibkarın xeyrinədir. Sahibkarlar sadə məsələlərə görə incidilməz, hər hansı problem yaranarsa, vaxtında həll edilə bilər».

Deyilənləri ümumiləşdirsək, bu nəticəyə gəlirik ki, təmiz işləyən hər bir sahibkar vergi partnyorluğu sazişini imzalamağa səy göstərməlidir. Deməli, partnyorluq sazişlərinin sayının artması ölkəmizdə işini qanunvericiliyin tələblərinə uyğun quran, ikili mühasibatdan istifadə etməyən, maliyyə əməliyyatlarını elektron formada təşkil edən, nağdsız əməliyyatlar aparan, vergiləri könüllü ödəyən sahibkarın sayının artmasından xəbər verir.

Partnyorluq sazişinin yeni tətbiq edilməsinə baxmayaraq, ona rəğbət göstərən sahibkarların sırası sürətlə böyüyür. Vergilər Nazirliyinin məlumatına görə, əgər 2013-cü ilin noyabr ayında cəmi 354 partnyorluq müqaviləsi imzalanmışdısa, 2014-cü ilin əvvəlinə olan məlumata əsasən, vergi partnyorluğu sazişi bağlayan sahibkarların sayı 1500-ə çatıb (2014-cü il avqust ayının 1-də bu rəqəm 2211 olub - red.). Partnyorluq sazişini bağlamaq üçün Vergilər Nazirliyinə müraciət edən sahibkarların sayı isə günbəgün artır.

Beləliklə, qabaqcıl ölkələrdə böyük uğurla sınaqdan keçən təcrübə ölkəmizdə də vergilər orqanları ilə sahibkarlar arasında qarşılıqlı inam və etimad körpüsü yaradır.

**Vasif CƏFƏROV,**
***«Ekspress» qəzeti***



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Vergi məqsədləri üçün maddi aktivin «əsas vəsait» halına gəlməsi

Uçotla bağlı qanunvericilikdən məlumdur ki, maddi əşyalar uçotda «uzunmüddətli» və «qısamüddətli» formasında 2 hissəyə ayrılmaqla əks etdirilir. Uçotda əks etdirilən əsas vəsaitlər uzunmüddətli maddi aktiv kimi nəzərə alınıb. Lakin müəssisəyə daxil olan hər hansı uzunmüddətli maddi aktivin «əsas vəsait» statusuna gəlməsi üçün qanunvericilikdə kriteriyalar müəyyyənləşdirilib. Mütəxəssislər həmin kriteriyaları (və ya şərtləri) özündə ehtiva edən uzunmüddətli maddi əşyaları əsas vəsaitlər kateqoriyasına aid etməlidir, aid olmayanlar isə digər uzunmüddətli əşyalar kimi nəzərə alınmalıdır. Vergitutma məqsədləri üçün bu kriteriyaların müəyyənləşdirilməsi Vergi Məcəlləsinin müddəaları ilə mümkündür.

Vergi Məcəlləsinə görə, əsas vəsaitlər - istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, bu Məcəllənin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir (maddə 13.2.17). Əsas vəsait anlayışında «istifadə müddəti bir ildən çox olan maddi aktiv», «dəyəri 500 manatdan çox olan maddi aktiv» və mütləq «amortizasiya edilməli olan maddi aktiv» kimi üç şərtin qoyulmasına diqqət yetirilməlidir.

Sual yarana bilər ki, bu 3 şərtə cavab verən istənilən maddi aktiv «əsas vəsait» hesab edilməlidirmi? Bu sualın cavabını Vergi Məcəlləsinin 114.2-ci maddəsinin tələblərinə nəzər yetirdikdən sonra tapmaq olar. Bu maddəyə görə, hətta bu üç şərtə cavab verə bilən elə maddi aktivlər vardır ki, onlar əsas vəsait hesab edilmir. Ona görə ki, bu maddədə vergitutma məqsədləri üçün amortizasiya olunmayan maddi aktivlərin təsnifatı verilib. Məsələn, torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar, konservasiya edilmiş əsas vəsaitlər, ümumi istifadədə olan avtomobil yolları, ümumi istifadədə olan parklardakı avadanlıq, istismara verilməmiş anbarda olan əsas vəsaitlər, məhsuldar heyvanlar və 114.2-ci maddədə nəzərdə tutulan digər aktivlər amortizasiya olunmayan aktivlər hesab edildiyinə görə yuxarıda göstərilən üç şərtdən 1-ci və 2-cisinə cavab verib-verməməsindən asılı olmayaraq vergi məqsədləri üçün əsas vəsait hesab edilmir.

Digər bir sual da yarana bilər ki, bu üç şərtə cavab verən və Vergi Məcəlləsinin 114.2-ci maddəsi ilə əlaqəli olmayan istənilən maddi aktiv istismara verilib-verilməməsindən asılı olmayaraq «əsas vəsait» hesab edilməlidirmi? Cavabını Vergi Məcəlləsinin 114.2.10-cu maddəsində tapmaq olar. Bu maddəyə görə, istismara verilməmiş anbarda olan əsas vəsaitlər amortizasiya olunmayan maddi aktiv hesab edilir. Məntiqlə belədir ki, maddi aktiv anbardadırsa, əsas vəsait hesab edilə bilməz. Burada «anbar» ifadəsi də çaşdırıcı ola bilər. Çünki ayrıca anbarı olmayan şəxs hər hansı maddi aktiv alarsa və həmin aktivi istismara verməmişdirsə, bu aktivi müəyyən bir yerdə (ofisdə, ofisin dəhlizində, başqasının ərazisində) saxlamaq məcburiyyətindədir. İstismara qədər saxlanılan müddətdə maddi aktiv əsas vəsait hesab edilə bilməz.

Maraqlı bir sual da yarana bilər ki, bu üç şərtə cavab verən və Vergi Məcəlləsinin 114.2-ci maddəsi ilə əlaqəli olmayan istənilən maddi aktiv istismara verildikdən sonra müəyyən səbəblərə görə faktiki istismar olunmursa, belə maddi aktiv «əsas vəsait» hesab edilməlidirmi? Məsələn, fəaliyyətini müəyyən müddətə (1, 3, 5 il və ya daha çox müddətə) müvəqqəti dayandıran şəxs fəaliyyətini dayandıran müddətədək istismarda olduğu əsas vəsaitlərini fəaliyyətini dayandırdıqdan sonrakı dövrdə istismar etməyəcəyi bəllidir. Belə halda həmin əsas vəsaitlər nə qədər ki konservasiya edilməyib, əsas vəsait olaraq qalacaqdır. Lakin elə əsas vəsait vardır ki, konservasiya edilə bilməz, məsələn, hər hansı bina və ya tikili. Fəaliyyətini müvəqqəti dayandırdığı müddətdə əsas vəsait kimi balansda olan bina, tikili və qurğular, eləcə də konservasiya edilməyərək saxlanılan digər bütün əsas vəsaitlər öz statusunda, yəni vergi məqsədləri üçün əsas vəsait kimi tanınır. Bu aktivlərə əmlak vergisi məqsədləri üçün amortizasiya hesablana bilər.

Əsas vəsait anlayışında maddi aktivin dəyərinin 500 manatdan çox olması şərti göstərilib. Yəni vahidinin dəyəri 500 manat və ondan artıq qiymətə başa gələn maddi aktiv əsas vəsaitlərə aid edilə bilər. Burada 500 manatdan artıq dəyər dedikdə, Vergi Məcəlləsinin 143-cü maddəsi ilə formalaşan dəyər nəzərə alınmalıdır. Məsələn, maddi aktiv 450 manata alınır və 60 manat quraşdırılmasına xərc çəkilirsə (cəmi dəyər 510 manat), həmin maddi aktiv vergi məqsədləri üçün əsas vəsait hesab edilir, baxmayaraq ki, alınması üçün 450 manat xərclənib.

Əsas vəsait anlayışında maddi aktivin istismar (istifadə) müddətinin bir ildən çox olması şərti də göstərilib. Aktivin istismar müddətinin 1 ildən artıq olması həmin aktivlə bağlı müəssisədaxili siyasətlə, yəni uçot siyasətinə əsasən müəyyənləşdirilir.

Qeyd edək ki, vergi məqsədləri üçün əsas vəsait hesab edilməyən maddi aktivlər «digər aktivlər» kimi təsnifləşdirilir. Bunlara gələcəkdə yuxarıda göstərilən üç şərtə cavab verə biləcəyi gözlənilən başa çatdırılmamış tikinti işləri, istismara qədər anbarda və ya hər hansı digər yerdə saxlanılan maddi aktivlər, quraşdırılası avadanlıq və bütövlükdə Vergi Məcəlləsinin 114.2.10-cu maddəsində nəzərdə tutulan maddi aktivlər aiddir.

## vergi taqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rüb ikinci ayın 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmir.

Bununla əlaqədar olaraq ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 11 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|
| 1 | «YEVLAX 1023 SAYLI APTEK» MMC | Yevlax rayonu |
| 2 | ƏLİYEV MƏHƏRRƏM SURXAY OĞLU | Mingəçevir şəhəri |
| 3 | ŞƏRİFİ QƏRİB NİCAT OĞLU | Bərdə rayonu |
| 4 | «ELK-2006» MMC | Yevlax rayonu |
| 5 | HÜSEYNOV ƏSGƏR MƏMMƏDHÜSEYN OĞLU | Yevlax rayonu |
| 6 | ŞƏRİFOV RUSLAN RAFİQ OĞLU | Yevlax rayonu |
| 7 | MƏMMƏDOV BƏXTİYAR NƏSİB OĞLU | Bərdə rayonu |
| 8 | QULİYEV ELŞƏN ƏLƏSGƏR OĞLU | Mingəçevir şəhəri |
| 9 | MƏNƏFOV MƏMMƏD XALİD OĞLU | Şəki rayonu |
| 10 | BABAYEV ƏLİBABA BABƏLİ OĞLU | Mingəçevir şəhəri |

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**6-cı MƏRHƏLƏ**

***Düzəliş ikili yazılışların verilməsi (əməliyyat jurnalının davamı)***

Hörmətli oxucular, mühasibat işinin növbəti mərhələsinə keçməzdən öncə bir daha əvvəlki mərhələlərə qısaca nəzər salaq. Mühasib ilk mərhələdə ilkin sənədləri əldə edir, sənədləri əməliyyatlar üzrə çeşidləyir və uçota almaq üçün sənədləri hazır vəziyyətə gətirir. 2-ci mərhələdə mühasib toplanan ilkin sənədlər əsasında, yəni həmin sənədlərdə əks etdirilən, təsdiqlənən baş vermiş təsərrüfat əməliyyatlarını ikili yazılış üsulu qaydasında əməliyyat jurnalında əks etdirir. Mühasib 3-cü mərhələdə baş kitabı işləyir və bununla da hər bir mühasibat hesabı üzrə məbləğlərin hərəkətini (hesabın dövrün əvvəlinə və sonuna qalığı, həmçinin hesab daxilində dövriyyələr) ümumi şəkildə nəzarət olunur. 4-cü mərhələdə mühasib baş kitabda uçotu aparılan hesabların hesabat dövrünün sonuna qalıqlarının debet və kredit bərabərliyinin yoxlanılması məqsədilə sınaq balansı tərtib edir. Bu balansa ilkin sınaq balansı da demək olar. Çünki bu sınaq balansındakı bəzi hesablar (əsasən gəlir və xərc hesabları) maliyyə hesabatlarının hazırlanmasının asanlaşdırılması və tərtibatı üçün bağlanılmamış saxlanılır. Bağlanması (sıfırlanması) gərək olan hesabların hələ açıq qaldığına və sonrakı mərhələlərdə bağlanılaraq sıfırlanacağı nəzərdə tutulduğuna görə bu sınaq balansını məhz ilkin sınaq balansı adlandırmaq olar. 5-ci mərhələdə maliyyə hesabatları hazırlanır. Maliyyə hesabatlarının hazırlanmasında həm ilkin sınaq balansından, həm baş kitabdan, həm də əməliyyat jurnalından kompleks istifadə olunur.

Növbəti 6-cı mərhələdə mühasib ilkin hazırlanmış Sınaq balansında bağlanmamış, yəni sıfırlanmamış və dəyişikliklər edilməsi tələb olunan hesablar üzrə tamamlama işlərini başa çatdırmalıdır. Əsasən bu hesablara gəlirlər, xərclər, vergi öhdəlikləri və mənfəətin bölüşdürülməsi (kapital) ilə bağlı hesabları aid etmək olar. 5-ci mərhələ üzrə mənfəət və zərər haqqında hesabat hazırlanarkən bu hesabatda gəlir və xərc hesabları qarşılıqlı əvəzləşdirilməklə mənfəət göstəricisi və bunun əsasında da mənfəət vergisi göstəricisi təyin edildi. Mənfəət və zərər haqqında hesabatda təzahür edən hesablamalara aşağıdakı kimi ikili yazılış verə bilərik, yəni əməliyyat jurnalında ikili yazılışların verilməsinin aşağıdakı kimi davam etdirilməsi tövsiyə olunur:

**ƏMƏLİYYAT JURNALI**

| Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|
| 601, "Satış"<br>801, "Ümumi mənfəət (zərər)"<br>"Satış" hesabı bağlanır | 383400 | 383400 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>701, "Satışın maya dəyəri"<br>"Satışın maya dəyəri" hesabı bağlanır | 273350 | 273350 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>711, "Kommersiya xərcləri"<br>"Kommersiya xərcləri" hesabı bağlanır | 35560 | 35560 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>721, "İnzibati xərclər"<br>"İnzibati xərclər" hesabı bağlanır | 15110 | 15110 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>751, "Maliyyə xərcləri"<br>"Maliyyə xərcləri" hesabı bağlanır | 12660 | 12660 |
| 901, "Cari mənfəət vergisi üzrə xərclər"<br>521, "Vergi öhdəlikləri"<br>Uçot mənfəəti üzrə hesablanmış mənfəət vergisi uçota alınır (46720 manat x 20%) | 9344 | 9344 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>901, "Cari mənfəət vergisi üzrə xərclər"<br>"Cari mənfəət vergisi üzrə xərclər" hesabı bağlanır | 9344 | 9344 |
| 801, "Ümumi mənfəət (zərər)"<br>341, "Hesabat dövrünün xalis mənfəəti (zərəri)"<br>Xalis mənfəətin məbləği tam olaraq "Hesabat dövrünün xalis mənfəəti (zərəri)" hesabına köçürülür | 37376 | 37376 |



beynəlxalq panoram

# Çexiyada ƏDV dərəcəsi aşağı salınıb

*Parlament ƏDV üzrə 10%-lik aşağı vergi dərəcəsini müəyyən edən qanun layihəsini birinci oxunuşda qəbul edib.*



Verginin bu dərəcəsi kitabların, dərmanların və uşaq mallarının satışına tətbiq ediləcək. Hazırda ƏDV-nin baza dərəcəsi 21% təşkil edir, aşağı salınmış dərəcəsi isə 15%-dir. Qanun layihəsi tam qəbul edildikdən sonra senat və ölkə prezidenti tərəfindən də təsdiq edilməlidir.

Yeni tarifin tətbiqindən sonra Maliyyə Nazirliyi istehlakçılar üçün qiymətlərin aşağı salınacağını vəd edir. Kitab, dərman və uşaq mallarına verginin azaldılması dövlət büdcəsinə 2,9 mlrd. krona (10 kron = 0,49 ABŞ dolları) başa gələcək. Ən böyük maliyyə itkisi dərmanlara olan verginin azaldılmasındandır.

Maliyyə naziri Andrey Babişin sözlərinə görə, ƏDV-nin 2 fərqli dərəcəsinin müəyyən edilməsi daha məqsədəmüvafiqdir, üçüncü dərəcə isə sistemə uyğun gəlmir.

ƏDV-nin yeni dərəcəsinin tətbiqi ilə hökumət çoxuşaqlı ailələrə, təqaüdçülərə, tələbə və xəstə vətəndaşlara sosial dəstək vermək niyyətindədir.

# BVF Bəhreyndə ƏDV-nin tətbiqi ideyasına dəstək verir

*Beynəlxalq Valyuta Fondunun (BVF) son məruzəsində deyilir ki, neft sektorundan daxilolmalardan asılılığı azaltmaq üçün Bəhreyn hökuməti gəlir vergisinin geniş miqyasda tətbiqini reallaşdırmalı, həmçinin regional əlavə dəyər vergisinin tətbiqi istiqamətində işləri sürətləndirməlidir.*

Bəhreynin vergi rejiminə əsasən, yalnız neft və qazın kəşfiyyatı, istehsalı və neft hasilatı ilə məşğul olan şirkətlərin gəlirləri 46% həcmində vahid dərəcə ilə korporativ gəlir vergisinə cəlb edilir.

Artıq uzun illərdir ki, İran körfəzi ölkələrinin Əməkdaşlıq Şurasına üzv dövlətlərdə ƏDV-nin tətbiqinin reallaşdırılması planları hazırlanma mərhələsindədir. Bu siyasi birliyə Bəhreyn, Küveyt, Əmman, Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri daxildir. ƏDV-nin tətbiqi ilə bağlı müzakirələrin başlamasından ötən bir neçə il ərzində danışıqlar heç bir nəticə verməyib. Yalnız Əmman dövləti bəyan edib ki, 2016-cı ildə 5%-lik ƏDV-ni tətbiq etməklə bu sahədə İran körfəzi ölkələrinə nümunə göstərməyə çalışacaqdır.

2014-cü ildə Bəhreynlə aparılan məsləhətləşmələrdən sonra BVF bildirib ki, bu ölkə ƏDV ilə bağlı danışıqlarda mühüm rol oynayır. Fond qeyd edib ki, Bəhreyn yaxın illərdə neft daxilolmalarından maliyyə asılılığını azaltmalı və davamlı iqtisadi artımı bərpa etməlidir.

# İrlandiyada korporativ verginin dərəcəsi dəyişməyəcək

*Maliyyə naziri Maykl Nunan bildirib ki, hökumətin korporativ vergi siyasətinə dair dəyişməz mövqeyini nəzərə alaraq, korporativ verginin dərəcəsində hər hansı dəyişiklik olacağını gözləmək əbəsdir.*

Parlamentin vergi kursunun dəyişilməsinin mümkün nəticələri ilə bağlı yazılı sorğusuna cavab verən maliyyə naziri qeyd edib ki, dəqiq miqyasları qiymətləndirmək çətindir, lakin bu nəticələr ciddi ola bilər.

Maliyyə naziri vurğulayıb ki, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının apardığı tədqiqatlara görə, korporativ verginin dərəcəsinin 1% artırılması ölkəyə investisiyaların orta hesabla 3,7% azalması demək olardı. Əslində, korporativ verginin dərəcəsinin azaldılması ölkəyə investisiyaları cəlb edə bilər. Hökumət bunu nəzərə alaraq korporativ verginin dərəcəsinin dəyişməyəcəyini və 12,5% səviyyəsində qalacağını açıq şəkildə bəyan edir. M.Nunanın sözlərinə görə, hətta vergi dərəcəsinin cüzi dəyişməsi belə beynəlxalq biznesin İrlandiyaya maraqları baxımından hökumətin mövqelərini zəiflədə bilər.



Xarici ölkələrin təcrübəsi:

# Estoniya Respublikasının vergi sistemi: *əlavə dəyər vergisi*

*Ölkədə Vergi və Gömrük Şurası tərəfindən 2012-ci ildə toplanmış ümumi vergi daxilolmalarının 1/3 hissəsini ƏDV üzrə vergi daxilolmaları təşkil etmişdir. Həmin il ƏDV üzrə vergi daxilolmalarının ÜDM-ə nisbəti isə 8,7% olmuşdur.*

Estoniyada mövcud olan ƏDV sistemi Avropa İttifaqı ölkələrinin ƏDV sisteminə uyğunlaşdırılmışdır. ƏDV toplanması mexanizminə əsasən, vergi ödəyicisi təqdim etdiyi mal və xidmətlərə görə ƏDV hesablamalı, sahibkarlıq məqsədilə çəkilmiş xərcləri çıxmalı və yaranmış fərqi dövlət büdcəsinə ödəməlidir. ƏDV hər hesabat ayından sonrakı ayın 20-dək bəyannamə təqdim edilənədək bank hesabı vasitəsilə ödənilir.

Vergiyə cəlb olunan əməliyyatlar:

- Estoniyada mal-xidmətlərin təqdim olunması;
- Birlikdaxili ölkələrdən mal əldə edilməsi;
- Estoniyaya mal idxalı;
- Estoniyadan kənara vergidən azad edilmiş hesab olunmayan xidmətlərin göstərilməsi.

ƏDV aşağıda qeyd olunan mal-xidmətlərə tətbiq olunmur: sosial xarakterli mal və xidmətlər; universal poçt xidmətləri; səhiyyə xidmətləri; bir sıra sosial xidmətlər; bəzi təhsil xidmətləri; xüsusi təyinatlı avtomobillərlə xəstə, xəsarət almış şəxslərin daşınması.

ƏDV-dən azad olunan digər mal-xidmətlərə sığorta xidmətləri, daşınmaz əmlak və onun hissələri, bəzi istisnalarla qiymətli kağızlar, daşınmaz əmlakın lizinqi (bu azadolma məişət xidmətləri, parklama duracaq yerləri, müəssisələrdə quraşdırılmış maşın avadanlığın lizinqinə tətbiq edilmir), siyahı üzrə maliyyə xidmətləri, lotereya və idman mərc oyunları, investisiya qızılı daxildir.

Estoniyada ƏDV-nin standart dərəcəsi 20%-dir. Azaldılmış 9%-lik dərəcə bəzi kitab və dövri nəşrlərə, bir sıra dərman preparatları və tibbi avadanlığa və məişət xidmətlərinə tətbiq olunur. «0» (sıfır) dərəcə ilə ƏDV Avropa Birliyi daxilində malların təqdim edilməsi, beynəlxalq sərnişin nəqliyyatına aid gəmi və ya təyyarədə sərnişinlərə göstərilən xidmətlər, beynəlxalq hava və dəniz nəqliyyatında istifadə edilməsi məqsədilə təqdim olunmuş nəqliyyat vasitələrinə tətbiq olunur.

Qeyri-rezidentlər: Estoniyada daimi nümayəndəliyi olmadan «reverse-charge» (əks tərəfin ödəməsi) mexanizminə uyğun olaraq ƏDV-yə cəlb olunmayan mallar təqdim edən qeyri-rezidentlər ƏDV qeydiyyatına durmalıdırlar. «Reverse-charge» mexanizminə uyğun olaraq ƏDV-yə cəlb olunan xidmətlərə görə qeydiyyat üçün minimum dövriyyə nəzərdə tutulmamışdır.

Vergi ödəyicisi olan digər Avropa İttifaqına üzv ölkə vətəndaşı aşağıdakı hallarda ƏDV-ni əvəzləşdirmək hüququ əldə edir:

- Şəxs olduğu ölkədə müəssisə kimi ƏDV-ni ödəməlidir;
- Şəxs olduğu ölkədə mövcud olan müddəalara uyğun olaraq ödədiyi ƏDV-ni əvəzləşdirmək hüququ əldə edir;
- Əvəzləşdiriləcək ƏDV-nin məbləği bir təqvim ili üzrə minimum 50 avro və ya əvəzləşdirmə barədə ərizə 3-12 aylıq dövrü əhatə edirsə, 400 avrodan az olmamalıdır.
- Estoniya vergi orqanı şəxsin yerləşmə ölkəsinin vergi orqanı tərəfindən göndərilən elektron ərizəni əvəzləşdirmə dövründən sonrakı təqvim ilinin 30 sentyabrınadək qəbul edir.




*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:**

1.İntibah dövrünün italyan rəssamı; 2.İliada poemasının baş qəhrəmanı, yunan ordusunun ən cəsur sərkərdəsi, yunanların qəhrəmanı; 3.Triqonometrik funksiya; 4.Azərbaycanın pop müğənnisi; 5.Bir şeyi işlətmək, bir şeydən istifadə etmək üçün icazə verilən norma, miqdar; 6.Avtomobil markası; 9.Teatr, kino və s.-də tamaşaçıların fasilələrdə tamaşanın başlanmasını dayanıb gözləməsi üçün xüsusi yer; 13.Rəhbər; 15.Hər hansı bir sənədin və ondan çıxarışın qısa ifadə edilməsi; 16.Parlament sədri; 17.Böyük Britaniyada fəxri titul; 18.Şarları taxta çəkiclərlə vurub məftil qapılardan keçirməkdən ibarət oyun; 20.Məqsədinə, arzusuna çatmamış; 21.Mərsinkimilər fəsiləsinə aid bitki cinsi.

**Soldan sağa:**

1.İri şirkətlər, o cümlədən transmilli korporasiyalar tərəfindən onların filialları və struktur bölmələri arasında aparılan alqı-satqı əməliyyatlarında istifadə olunan qiymətlər; 5.Latviyanın pul vahidi; 7.Balıq tutmaq üçün uzun tilov; 8.Paytaxtımızda ticarət mərkəzi; 10.Müəyyən sistem üzrə toplanmış xəritələr toplusu; 11.İşləmə prinsipi naqilin müqavimətinin onun uzunluğundan asılı olmasına və Om qanununa əsaslanan dövrədə cərəyan şiddətini tənzimləyən cihaz; 12.Filtrsiz siqaret markası, həmçinin gül adı; 14.Gəncliyində radikal təfəkkür tərzi ilə fərqlənmiş alman filosofu, obyektiv idealist, klassik alman fəlsəfəsinin nümayəndəsi; 19.Avtomobil markası; 21.Respublikamızda rayon; 22.Mərkəzi Amerikada çay; 23.Psixoloji nasazlıq və həddindən artıq narahatlıq və qorxuyla xarakterizə edilən şəxs; 24.Tünd spirtli içki; 25.Kağız icad olunana qədər üstündə yazı yazmaq üçün istifadə olunan xüsusi surətdə işlənmiş heyvan dərisi.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Altuna; 2.Türkmən; 3.Elnur; 4.Propan; 5.Əsgər; 6.Reyqan *(Ronald)*; 9.Adda; 13.Poni; 15.Dilemma; 16.Stimul; 17.Avqust; 18.Maqnit; 20.Xəbər; 21.Kredo.

**Soldan sağa:** 1.Antverpen; 5.Əsr; 7.Turandot; 8.Ögey; 10.Nəmər; 11.Andorra; 12.Şnaps; 14.Panda; 19.Tixonov *(Vyaçeslav)*; 21.Kolba; 22.Maba; 23.Supermen; 24.Lur; 25.Astronavt.

Vergilər Nazirliyinin kollektivi Nazirliyin Maliyyə-təsərrüfat idarəsinin rəisi Məhəmməd Balaqadaşova, qardaşı **CƏBRAYIL BALAQADAŞOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Güləşçimiz Olimpiya çempionu



**Azərbaycan Yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarında daha bir qızıl medal qazanıb**

Nancinqdəki «Longjiang Gymnasium» idman sarayında yunan-Roma güləşi üzrə yarışlarda İslambek Dadov özbəkistanlı Abubəkr Alimovu, misirli Ömər İbrahimi və qazaxıstanlı Yevgeni Polivadovun hər birini 3:0 hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb.

Həlledici görüşdə İ.Dadov ABŞ idmançısı Meyson Manvil ilə qarşılaşıb və rəqibini 3:0 hesabı ilə məğlub edən güləşçimiz Olimpiya çempionu olub.

Bundan əvvəl isə güləşçimiz Cabbar Nəcəfov (50 kq) inamla yarışaraq təsnifat mərhələsində Uğur Bəytəkini (Türkiyə) 4:0, Məhəmmədrza Ağaniyani (İran) 3:1 və Dorin Kocakarini (Moldova) 4:0 hesabı ilə məğlub edərək finala çıxmışdı.

Finalda özbəkistanlı İlxom Baxromova 3:1 hesabı ilə məğlub olan güləşçimiz gümüş medalla kifayətlənib.

Xatırladaq ki, Azərbaycan idmançıları Yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarında bu günədək 2 qızıl, 5 gümüş və 1 bürünc medal qazanıblar.

# Bir medal da qadın güləşçimizdən

Yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarında dünən qadın güləşçilərin yarışlarına start verilib. Azərbaycanın bu növdə yeganə təmsilçisi Leyla Qurbanova (52kq) inamla yarışaraq təsnifat mərhələsində kanadalı Tianna Kennetə (4:0), ukraynalı Olena Kremzerə (3:1) və salvadorlu Mayra Elizabet Vaskuez Aparisioya (4:0) qalib gələrək finala vəsiqə qazanıb.

Finalda Leyla yaponiyalı Mayu Mukayda ilə güləşib. Gərgin keçən qarşılaşma rəqibin üstünlüyü ilə tamamlanıb. Leyla Qurbanova Olimpiya Oyunlarının gümüş medalını qazanıb.

# Bədii gimnastika üzrə 10-cu Baltik ölkələri kuboku başa çatıb

Polşanın Rumya şəhərində Bədii gimnastika üzrə 10-cu Baltik ölkələri kuboku başa çatıb. Azərbaycan milli komandasının lideri Marina Durunda çoxnövçülük yarışlarında gözəl nəticə göstərərək hakimlərdən 72,400 xal qazanıb. Azərbaycan Gimnastika Federasiyası mətbuat xidmətinin məlumatına görə, gimnastımız İsrailin iki nümayəndəsini - 71,800 xal qazanmış Neta Rivkini və Viktoriya Filanovskini (69,550 xal) qabaqlayaraq qızıl medal əldə edib. M.Durunda həmçinin gürzlə çıxışına görə qızıl, topla və halqa ilə çıxışlarına görə iki gümüş medal qazanıb.

Azərbaycanın digər nümayəndəsi Gülsüm Şəfizadə bürünc mükafatçıdan azacıq geri qalaraq dördüncü nəticə göstərib.

Turnirdə Azərbaycanı Nilufər Niftəliyeva və Ayşən Bayramova da təmsil ediblər.

Azərbaycan yığmasının baş məşqçisi Mariana Vasileva öz şagirdlərinin uğurlarını şərh edib.

O deyib: «Marinanın çıxışı məni çox sevindirir, o, yarışdan-yarışa daha da mükəmməlləşir. Topla çıxışına görə finala çıxa bilmiş Ayşən Bayramovanı xüsusi qeyd etmək istəyirəm, axı onun üçün bu turnir ilk ciddi start idi».

Dünya çempionatınadək gimnastlarımızı daha bir start gözləyir. Sentyabrın 5-6-da Kazanda Bədii gimnastika üzrə Dünya Kuboku keçiriləcək. Bu yarışda Azərbaycanı Ayşən və Nilufər təmsil edəcəklər.

# Romada dinlərarası sülhyaratma matçı keçiriləcək

Sentyabrın 1-də Romada dinlərarası sülhyaratma futbol matçı keçiriləcək. Matçda müxtəlif dinlərə etiqad bəsləyən 50-yə yaxın futbol ulduzu, o cümlədən Zinədin Zidan, Lionel Messi, Françesko Totti, Roberto Baco, Havyer Dzanetti, Filippo İnzaqi, Kristian Ledesma, Markos Senna, Samuel Eto'O, qapıçı Canluici Buffon və başqaları iştirak edəcək.

Olimpiya stadionunda keçiriləcək matçda müsəlman, xristian, induist, buddist, yəhudi və digər dinləri, mədəniyyətləri təmsil edən futbolçulardan ibarət iki komanda qarşılaşacaq. Pontifikin dəvəti ilə idmançılar matçdan əvvəl Vatikana gedəcəklər. Lakin bu möhtəşəm idman tədbirinin təşəbbüsçüsü kimi çıxış etmiş pontifik özü matça gəlməyəcək.

Rektoru argentinalı yepiskop Marselo Sançes Saronda olan Papa Elmlər Akademiyası matçın təşkilinə kömək edib. Matçın təşkilatçısı isə Argentina yığmasının və Milanın «İnter» komandasının sabiq kapitanı Havyer Dzanettidir. İtaliya sənaye nəhəngləri «Fiat», «Pirelli» şirkətləri, habelə Beynəlxalq Futbol Federasiyası (FİFA) və İtaliyanın bir sıra kütləvi informasiya vasitələri, o cümlədən «Rai», «Ansa» agentlikləri və «Vatikan radiosu» bu oyuna sponsorluq edəcəklər.

Papa Fransiskin ən yaxın əməkdaşlarından biri olan Gilyermo Karçeri tədbirin təqdimat mərasimində çıxış edərək bildirib ki, Papa Fransisk hələ Buenos-Ayresin arxiyepiskopu olduğu dövrdə elə bir matç təşkil etmək istəyirdi ki, bəşəriyyətin diqqətini bütün siyasi və diplomatik vasitələrdən istifadə etməklə sülhü qoruyub saxlamaq probleminə cəlb edə bilsin.

Bu ilin yayında isə Roma Papası ilə Havyer Dzanettinin qeyri-rəsmi görüşündə həmin ideya real cizgilər kəsb edib. Bildirilir ki, futbolçular əyinlərinə müxtəlif rənglərlə və müxtəlif dillərdə «Sülh» sözü yazılmış maykalar geyinəcəklər.

## mozaika

maraqlı

# Bənzəri olmayan hava limanı



**Çində dünyada bənzəri olmayan hava limanının tikintisi başa çatmaq üzrədir.**

Bu ay açılışı gözlənilən bu liman, adi aeroportlardan fərqli olaraq, yüksək dağ zirvəsində, buludlardan da hündürdə yerləşir. Çinin Quanqsi-Juanq muxtar rayonunun dörd milyona yaxın əhalisi olan Heçi şəhərində fəaliyyət göstərəcək aeroportun inşası beş ilə başa gəlib. Uzunluğu 2200 metr, eni isə 45 metr olan hava limanını salmaq üçün 60-a yaxın zirvə dağıdılaraq hamarlanıb.

Heçi aeroportu 4C kateqoriyasına şamil olunur. Bu qeyri-adi aeroporta təyyarələrin enməsini yalnız intensiv təlim görmüş peşəkar pilotlar həyata keçirə bilər. Hava limanı «Bombardier CRJ900», «Embraer E190», «Boeing 737-700» və «Airbus A320» kimi təyyarə növlərini qəbul edə biləcək.

# Memarların yeni zoopark layihəsi



Dünyada heç bir zoopark əsl Afrika savannası, Amazonka meşələri və ya Himalay zirvələri ilə müqayisə oluna bilməz. Lakin BIG bürosunun memarları Danimarkada yeni zoopark layihəsi təqdim etməklə bu fikri şübhə altına alıblar. Zootopiya parkı Danimarkanın mərkəzi hissəsində, Qivskud safari-parkının ərazisində tikiləcək.

Yeni parkın konsepsiyası heyvanlar və ziyarətçilər arasında sərhədlərin tamamilə aradan qaldırılmasını nəzərdə tutur. Memarlar söz verirlər ki, zooparkda hər şey insanlar üçün tamamilə təhlükəsiz olacaq.

elm

# Cavanlaşdıran gen tapılıb

Massaçusets İnstitutunun (ABŞ) alimləri maya hüceyrələrində NTD80 geni aşkar ediblər. Başqa genlərə güclü təsir göstərən bu gen cavanlaşma prosesini fəallaşdıran spesifik zülal növü əmələ gətirməyə qadirdir.

Hazırda alimlər qocalma prosesini ləngidən və insanın ömür müddətini uzada bilən məsələnin həllinə çox yaxınlaşıblar. Hüceyrələrin nüvəsindəki dəyişiklikləri öyrənən alimlərin qənaətinə görə, qocalmanın əsas mexanizmləri məhz burada işləyir.

Alimlər hesab edirlər ki, mayanın hüceyrə səviyyəsində bölünməsi sayəsində bilavasitə insan orqanizmində bioloji proseslərin tənzimlənməsi, qocalma proseslərinin idarə olunması mexanizmlərinin işlənib hazırlanması və ömür müddətinin uzadılması üçün perspektivlər yaranır.

tarix

# Qədim yaşayış məskənində yeni tapıntılar



Şərur rayonu ərazisində yerləşən Birinci Maxta qədim yaşayış yerində yeni tapıntılar əldə edilib. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri Səfər Aşurovun sözlərinə görə, aparılan arxeoloji tədqiqatlar İlk Tunc dövrünün bir çox problemlərinin həllində mühüm əhəmiyyətə malik olan arxeoloji materialların əldə edilməsi ilə seçilir. Yaşayış yerinin 300 kvadratmetr sahəsi qazıntılara cəlb olunub. Qazıntılar mədəni təbəqənin təqribən 3 metrlik dərinliyində aparılır. Bu təbəqədə iki dairəvi tikilinin qalıqları aşkar edilib.

O bildirib ki, hər iki tikilinin daxilində dairəvi manqal təmizlənib: «Tikililərdən birinin daxilində 30-40 santimetr qalınlığında kül təbəqəsi müəyyən edilib. Bu fakt bir daha sübut edir ki, dairəvi tikililərin günbəzvari ağac örtükləri olub. Məhz bu ağac örtüklərin tez yanğınlara məruz qalması nəticəsində yaşayış yerinin müxtəlif yerlərində kül təbəqələri toplanıb. Yaşayış yerindən əldə olunmuş nalşəkilli ocaq qurğuları və onların kiçik modelləri maraqlı antropomorf quruluşludur».



Alim qeyd edib ki, bu tapıntılar artıq İlk Tunc dövründə cəmiyyətdə ata xaqanlığının hakim rol oynadığını bir daha təsdiq edir: «Saxsı məmulatı müxtəlif rəngli cilalı və sadə qablardan ibarətdir. Bir ədəd saxsı parçasının üzərinə çəkilmiş qırmızı boya isə bu dövrdə qismən olsa da, boyalı qabların istehsal olunduğunu təsdiq edir. Daş alətlərin, xüsusən döyüm alətlərinin çoxluğu yaşayış yeri sakinlərinin əsas məşğuliyyətinin oturaq əkinçilik olduğunu göstərir. Yaşayış yerində hər bir tikili konkret funksiyanı yerinə yetirib. Dairəvi qazıntı sahələrindən birində təmizlənmiş evlərin daxilindən xüsusi əşyaların - tokinslərin tapılması təsdiq edir ki, artıq e.ə. IV minilliyin sonlarından başlayaraq İlk Tunc dövrünün cəmiyyətləri inzibati cəhətdən idarə olunub. Ön Asiyada e.ə. IV minilliyin sonlarınadək mübadilə zamanı istifadə olunan tokinslər sonrakı mərhələdə mixi yazılarla əvəz olunub. Tokinslərin İlk Tunc dövrü abidələrindən ilk dəfə olaraq Birinci Maxtada, həm də toplu halında aşkar olunması Azərbaycanda dövlətçilik ənənələrinin tarixinin daha qədim olduğunu - 5000 ildən artıq tarixə malik olduğunu təsdiq edir. Bəzi saxsı məmulatların, həmçinin antropomorf ocaq qurğularının əldə olunması təsdiq edir ki, Birinci Maxta sakinlərinin Ön Asiyanın inkişaf etmiş cəmiyyətləri və Suriya-Fələstin istiqamətində yayılmış Kirbet-Kerak toplumları ilə sıx əlaqəsi olub. Birinci Maxta qazıntıları Kür-Araz mədəniyyətinin yerli zəmində yarandığını təsdiq edir. Bu mədəniyyətin əsas yaranma ocağının isə məhz Naxçıvan ərazisinin olması faktlarla sübuta yetirilir. Yaşayış yerinin mədəni təbəqələrinin daha dərin qatlara doğru davam etdiyini nəzərə alsaq, abidənin tarixinin daha qədim - təqribən e.ə. IV minilliyin əvvəllərinə aid olduğunu söyləyə bilərik».

**Müdriklər deyib ki...**

*«Hər kəs öz darvazasının qabağını süpürsə, bütün küçə təmiz olar».*

*L.N.Tolstoy (1828-1910)*

